

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Tarixi unutmayaq!

## Kəlbəcər necə işğal edilmişdi?



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 aprel
2024-cü il,
çərşənbə axşamı
№ 056 (6642)
Qiymәti
60 qəpik



# Böyük Qələbəyə aparan cığır - Aprel döyüşləri

Bax səh. 2




# 23 aprelə gedən yol

## 21 gün qalırdı...

Bax səh. 4

# "Dəmir Yumruq" uzaq Yeni Kaledoniyada

Bax səh. 6



## Türkiyə daha bir demokratiya imtahanından keçdi

Bax səh. 6

## Vatikandan sülhə çağırış

Məğlub Ermənistanın postmüharibə dövründə tənzimləmə prosesinə töhfə vermək əvəzinə, revanşizm mövqeyi tutması və müxtəlif manipulyasiyalara əl atması regionda təhlükəsizliyə yeni təhdidlər yaradır və eskalasiya risklərini artırır. Bu da dünyada narahatlıqla izlənilir. Bu günlərdə Roma Papası Fransisk növbəti dəfə sülhə çağırış edib. "Ermənistan və Azərbaycan arasında danışıqlara çağırıram ki, beynəlxalq ictimaiyyətin dəstəyi ilə onlar dialoqu davam etdirsinlər, nəticədə sülh sazişi imzalansın", - deyə Papa bildirib.

**Sülh prosesinin təşəbbüskarı...**

Bax səh. 4



## İcma tələb edir!

Bax səh. 3

# KTMT-də "donan" İrəvan Aİ-dəki fəaliyyətini necə davam etdirəcək?

Bax səh. 4

## 16-cı kütləvi məzarlıq...

Ermənistanın işğalçı siyasəti dövründə azərbaycanlıların qətlə yetirilməsi və kütləvi şəkildə basdırılmasını sübut edən faktların sayı artmaqdadır. 30 illik işğalçılıq zamanı xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədilib. Bu cinayətlər sırasında Birinci Qarabağ müharibəsi dövründə 4 minə yaxın azərbaycanlının itkin düşməsi və onlara qarşı qeyri-insani rəftar xüsusi yer tutur. Ermənistan hələ də onların taleyi haqqında heç bir məlumat vermir. Bu isə beynəlxalq cinayətdir. Ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunduqdan sonra erməni vəhşiliyi faktlarla ortaya çıxır. İşğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bunu təsdiqləyir.

Martın 31-də Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupu rəhbərinin müavini Eldar Səmədov jurnalistlərə açıqlamasında deyib ki, indiyədək...

Bax səh. 4

## Vaxta qənaət, şəffaflığa zəmanət...

2023-cü il ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 48 978 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 39 115 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 9 784 milyon manatı POS-terminallar, 70.7 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşib. Ümumilikdə, ötən il ölkədaxili nağdsız ödənişlərin həcmi əvvəlki illə müqayisədə 2 dəfə, elektron ticarətin həcmi 2.1 dəfə, POS-terminallarla ödənişin həcmi isə 68.6% artıb. Belə ki, 2022-ci ildə kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 24 170.5 milyon manat, elektron ticarətin həcmi 18 333 milyon manat, POS-terminallarla ödənişin həcmi isə 5 801 milyon manat təşkil edib. 2024-cü il yanvar ayının 1-nə banklar və "Azərpoçt" MMC sistemləri üzrə dövriyyədə olan ödəniş kartlarının sayı əvvəlki illə müqayisədə...

Bax səh. 5

## Çin qlobal iqtisadi gücə çevrilir

Dünyanın ən nəhəng iqtisadi qütblərindən biri olan Çinin 2035-ci ilə qədər əsas rəqibi ABŞ-ı geridə qoyaraq dünyanın ən böyük iqtisadiyyatına çevrilməsi ehtimal olunur. Bu barədə Çin Xalq Universitetinin Çonyanq Maliyyə Araşdırmaları İnstitutunun hesabatında deyilir. Sənədə əsasən, qarşıdak illər ərzində Çinin illik ümumi daxili məhsul (ÜDM) istehsalı 5% artım tempi nümayiş etdirərək 2035-ci ilə qlobal ÜDM-də əsas paya sahib olacaq.

Qeyd edək ki, 2023-cü ilin sonunda Çində ÜDM-in artımı 5,2% təşkil edərək 126 trilyon yuan və 17,7 trilyon dollar həcminə olub. ABŞ-ın ÜDM-i isə 2,5% artaraq 26,39 trilyon dollar təşkil edib. Ümumilikdə son illər iqtisadi artım dinamikasına əsasən, Çin Hindistan, Kanada, Rusiya və ABŞ-ı daha sürətlə keçərək əlavə dəyərin yaradılmasına ön planda yer alması müşahidə edilir. Hazırda qlobal ÜDM-in...

Bax səh. 5

## Avropanın planı dəyişir...

Üçüncü dünya müharibəsinin yaxınlaşdığı barədə qorxunc proqnozların verildiyi bir vaxtda Qərb dövlətləri Ukraynaya canlı hərbi qüvvə göndərmək planını intensiv müzakirə edir. İddialara görə, bu müzakirələr daha çox mediaya qapalı formada keçirilir. Rusiyalı ekspertlərin fikrincə, Makronun məşhur açıqlamasına təpki göstərən Aİ ölkələrinin liderləri əslində bu variant üzərində götür-qoy edirlər.

**Ukraynada NATO kontingenti var, amma...**

NATO hərbçilərinin Ukrayna döyüş bölgələrində...

Bax səh. 7



# Qərbin "binoklu" da işə yaramır

Bax səh. 3

## Fransa köhnə hərbi texnikasını Ukraynada "utilizasiya" edəcək?

Bax səh. 7

# Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğu məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirildi.



Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu qeyd edərək, dövlət başçıları, eləcə də digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi-ticari əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəminə toxunaraq bu iclasın gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda enerji sektorunda, xüsusilə indiki dövrdə yaşıl enerji sahəsində böyük layihələrin reallaşdırıldığını deyərək, ötən ay Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmini vurğuladı.

Sebastiyan İoan Burduja İlham Əliyevə prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən işlərin, Bakının gözəlliyinin və inkişafının onlarda dərin təəssürat doğurduğunu dedi.

Azərbaycan Prezidenti təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq Azərbaycandan təbii qazın və Qara Dəniz vasitəsilə yaşıl enerjinin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, LNG, yaşıl enerji və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir və Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndiyinə toxunuldu, ötən il ticarət dövriyyəsinin daha əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatdığı qeyd olundu, investisiya sahəsində də əməkdaşlığın möhkəmləndiyi bildirildi. SOCAR-ın Rumıniyada çox aktiv fəaliyyətinə toxunularaq onun bu ölkənin yanacaq bazarında kifayət qədər əhəmiyyətli yer tutduğu diqqətə çatdırıldı.

Söhbət zamanı kənd təsərrüfatı, səhiyyə və təhsil sahələrində də əməkdaşlığın genişlənməsi məmnunluqla vurğulandı.




# 23 aprelə gedən yol 21 gün qalırdı...

## Aksiyanın 112-ci günü...

- Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 112 gün idi ki, davam edirdi. Aksiyanın keçirildiyi ərazidə avtomobillərin hərəkətin sərbəstliyi fasiləsiz təmin edilib.

-Aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 1 minik, 14 təminat-təchizat avtomobilinin Laçından Xankəndi istiqamətinə sərbəst hərəkəti təmin edilib.

-Eyni zamanda aksiya ərazisindən Rusiya sülhməramlılarının 45, Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 9 avtomobilin keçməsinə şərait yaradılıb.

**Xarici media nümayəndələri ekoaksiyada...**

- Aprelin 2-də xarici media nümayəndələri Laçın-Xankəndi yolunda keçirilən aksiyanı işıqlandırmaq üçün əraziyə gəliblər.

-Böyük Britaniyadan olan müxbir Eror Aleksandar və serbiyalı fotoqraf Nemanya Knezeviç Laçın-Xankəndi yolunda hərəkətin sərbəstliyinin şahidi olub, aksiya ərazisindən çəkilişlər ediblər.

-Xarici media nümayəndələri Şuşadakı tarixi məkanlarla, şəhər işğal altında olarkən ermənilər tərəfindən törədilən vandalizmlə də tanış olublar.

# Böyük Qələbəyə aparan cığır - Aprel döyüşləri

**Müstəqil Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində son 200 illik tariximizin ən böyük zəfərlərini qazandı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu qələbələr sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunub. Bu gün aylı-ulduzlu Azərbaycan Bayrağı Xankəndi, Şuşa, Xocalı da daxil olmaqla ölkənin bütün ərazisində əzəmətlə dalğalanmaqla hər bir azərbaycanlıya sonsuz qürur hissi yaşadır. Ancaq qələbələrimiz yalnız 2020-ci ilin və yaxud 2023-cü ilin nəticələri deyil. Haqqı olduğu bu zəfərləri əldə edənədək ölkəmiz, xalqımız uzun yol qət edib, bir sıra çətinliklərdən keçib. Bizi böyük qələbələrə aparan yolda bir neçə hadisəni, keçilən ayrı-ayrı mərhələləri xüsusi qeyd edə bilərik ki, onların içərisində də 2016-cı il aprelin əvvəlində baş verən döyüşlərin xüsusi yeri və əhəmiyyəti var. Artıq şanlı Aprel döyüşlərindən səkkiz il ötür.**

## Planlı iş

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycandakı hakimiyyət boşluğundan istifadə etməklə və havadarlarının dəstəyindən bəhrələnməklə torpaqlarımızın 20 faizini işğal altına alan, bir milyondan artıq soydaşımızı doğma ev-eşiklərindən didərgin salan Ermənistan işğalçılıq siyasətinə və müharibə cinayətlərinə görə cəzalandırılmadı. BMT Təhlükəsizlik Şurasının Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını özündə ehtiva edən qətnamələri yerinə yetirilmədi. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupunun yanaşmaları təcavüzkarla işğala məruz qalan tərəf arasında bərabərlik işarəsi qoymaqdan uzağa getmirdi.

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmadı. Aparılan sülh danışıqlarında fəallıq göstərən, daim konstruktivlik ortaya qoyan Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında qətiyyətlə bildirirdi ki, Azərbaycan işğal faktı ilə heç vaxt barışmayacaq, sülh danışıqları nəticə verməyəcəyi təqdirdə, işğalın nəticələri başqa yollarla aradan qaldırılacaq. Beləliklə, dövlət başçısının qətiyyətli siyasi iradəsi əsasında ölkənin ərazi bütövlüyünün təmin olunması daim Azərbaycanın gündəliyinin mərkəzində saxlanıldı, bu istiqamətdə planlı iş aparıldı.

Müharibə geniş mənada ölkələrin milli gücələrinin qarşı-qarşıya gəlməsi anlamında qəbul olunur. İqtisadiyyatı güclü olmayan dövlət heç vaxt müharibənin qalib tərəfinə çevrilə bilməz. Bu mənada Prezident İlham Əiyevin respublikamızın iqtisadi müstəqilliyinin təmin olunması məqsədilə həyata keçirdiyi ardıcıl siyasət təqdirəlayiqdir. İqtisadi imkanların genişləndirilməsi ölkənin siyasi müstəqilliyini şərtləndirməklə yanaşı, həm də müasir ordu quruculuğu üçün geniş perspektivlər açdı. Ölkəmizdə güclü, qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir olan ordunun yaradılması ilə bağlı davamlı şəkildə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyıb. Dövlət büdcəsindən Silahlı Qüvvələrin möhkəmləndirilməsinə lazımi qədər vəsait yönəldilib. Bütövlükdə, davamlı dövlət qayğısı sayəsində Azərbaycan Ordusunun maddi-texniki təchizatını yüksək səviyyəyə çatdırmaq mümkün olub. Aprel döyüşləri, ondan sonrakı əməliyyatlar, Vətən müharibəsi və antiterror tədbirləri göstərdi ki, Azərbaycan ötən dövrdə ordu quruculuğunda müasir yanaşmalara və innovativ texnikalardan istifadə olunmasına üstünlük verib. Respublikamızda aparılan müasir ordu quruculuğu siyasətinin mühüm bir istiqamətini isə şəxsi heyətin peşəkarlığının artırılması, kadrların yetişdirilməsi, həmçinin əsgər və zabitlərin sosial təminatlarının gücləndirilməsi təşkil edib.

Qısa müstəqillik tarixində Azərbaycanın yerli müdafiə təyinatlı sənaye quruculuğuna nail olması, 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsalını mənimsəməsi də son dərəcə qürurverici haldır. Daxili imkanlar hesabına ölkəmizdə hərbi-sənaye kompleksinə aid "İqlim", "Avia-Aqreqat", "Sənayecihaz", "Dalğa" elm-istehsalat birlikləri, "Elektron Hesablayıcı Maşınlar", "Gəncə maşınqayırma", "Elektromexanika", "Radioquraşdırma", "Telemexanika", "Cihazqayırma", "Azon", "Araz", "Peyk", "Üfüq", "Dalğa" kimi müəssisələr yaradıldı. Beləliklə, qısa müddət ərzində Azərbaycan özünün iqtisadi və maliyyə potensialına əsaslanmaqla dünyanın ən güclü 50 ordusu sırasında yer alan Silahlı Qüvvələr formalaşdırmağa nail oldu. Bu Ordu düşmənə sarsıdıcı zərbələr vurmağa, ölkənin ərazi bütövlüyünü bərpa etməyə hazır və qadir idi. Ordumuzun gücünə inanan və güvənən Prezident İlham Əliyev müxtəlif auditoriyalarda qətiyyətlə bildirirdi ki, Ermənistan havadarlarının köməyi ilə öz nəzarətinə götürdüyü torpaqlarımızdan sülh yolu ilə çıxmasa, biz ərazi bütövlüyümüzü digər vasitələrlə təmin edəcəyik.

## Düşmən cəzalandırılmalı idi...

Ermənistan rəhbərliyi Azərbaycanın sülh çağırışlarına və verdiyi mesajlara məhəl qoymayaraq işğalçılıq siyasətindən əl çəkmirdi. Düşmən cəzalandırılmalı idi və bunu Azərbaycan Ordusu ilk dəfə 2016-cı il 1-4 aprel tarixində etdi. Aprel müharibəsi nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Madagiz kəndləri istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Lələtəpə yüksəkliyinin və onun ətrafındakı strateji baxımdan mühüm əhəmiyyət daşıyan ərazilərin ələ keçirilməsi ilə Ordumuz geniş coğrafiyada düşmənin atəş məntəqələrinə nəzarət etmək imkanı qazandı. Qısa müddətdə bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mühəndis-istehkam məntəqələri quruldu. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Verilən məlumatlara görə, dörd günlük müharibədə 320-dən artıq düşmən hərbiçisi məhv edildi. . Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Eyni zamanda, düşmənin Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və bir neçə hərbi hissəsii məhv edildi. Azərbaycan Ordusu Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı qazandı. Aprel döyüşləri nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı.

Dörd günlük Aprel döyüşləri həm mənəvi, həm də strateji nöqteyi-nəzərdən bizim çox böyük qələbəmiz idi. Düşmənin yaratdığı "məğlubedilməz ordu" mifi məhz bu döyüşlərdə tar-mar oldu. Aprel döyüşlərindən sonra Ermənistanın həm silahlı qüvvələri, həm də siyasi rəhbərliyi çıxılmaz durumda qalmışdı. İndiyədək Ermənistanın siyasi-hərbi rəhbərliyi daim cəmiyyətə nağıllar danışır, vədlər verirdi. Aprel döyüşləri o reallığı ortaya qoydu ki, genişmiqyaslı müharibə başlayacağı təqdirdə Ermənistan ordusu Azərbaycanın Silahlı Qüvvələri qarşısında tab gətirə bilməyəcək. Serjik Sarkisyan iqtidarı orduya ayrılan vəsaitləri təyinatı üzrə yönəltməmişdi. Pullar mənimsənilmiş, silahlı qüvvələr isə taleyin ümidinə buraxılmışdı. Ermənistan cəmiyyəti Serjik Sarkisyan iqtidarından bütün bunların hesabatını istəyirdi.



## Aprel döyüşləri ölkəmizin qətiyyətini bütün dünyaya nümayiş etdirdi

Aprel döyüşləri, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında heç bir güzəştə getməyəcəyini nümayiş etdirdi. Bütün dünya hərbiçilərimizin Vətən sevgisinin, eləcə də Ordumuzun gücünün şahidi oldu. İlk dəfə idi ki, Silahlı Qüvvələrimiz nəyə qadir olduqlarını açıq döyüşlərdə nümayiş etdirirdi. Əsgər və zabitlərimizin şücaəti ən yüksək qiymətə layiq idi. Prezident İlham Əliyevin 2016-cı il aprelin 19-da imzaladığı müvafiq sərəncamlarla Silahlı Qüvvələrimizin üç üzvü "Azərbaycanın Milli Qəhrəmanı" adına, 7 üzvü "Azərbaycan Bayrağı" ordeninə, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, 19 üzvü "Vətən uğrunda" medalına, 43 üzvü "İgidliyə görə" medalına, 45 üzvü "Hərbi xidmətlərə görə" medalına layiq görülüb, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

Ordumuz Aprel döyüşlərindən sonra 2020-ci ildə Vətən müharibəsində qazanılan Böyük Zəfərə doğru irəlilədi. Vətən müharibəsi başlayanadək Silahlı Qüvvələrimiz daha bir neçə dəfə öz gücünü düşmənə göstərdi. Bu sırada Günnüt döyüşlərini, Tovuz əməliyyatını misal göstərə bilərik. Ancaq Ermənistan bu döyüşlərdə uğradığı acınacaqlı məğlubiyyətdən özü üçün lazımi nəticələr çıxarmadı. Öz havadarlarına arxalanan düşmən 2020-ci il sentyabrın 27-də keçmiş təmas xətti boyunca növbəti dəfə genişmiqyaslı təxribata əl atdı. Bu dəfə Azərbaycan Ordusunun düşmənə cavabı daha qəti və sərt oldu. Ermənistanın heç bir motivasiyası olmayan hərbi birləşmələri Ordumuzun qarşısında duruş gətirə bilmədi və cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Silahlı Qüvvələrimiz 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad etdi. Sonrakı mərhələdə isə onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatla üzərinə müəyyən öhdəliklər götürən məğlub Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını respublikamıza döyüşsüz təslim etdi. Beləliklə, Aprel döyüşlərində zəfər yoluna çıxan Azərbaycan 44 günlük müharibədə özünün ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. Ötən il baş verən 23 saatlıq antiterror tədbirlərində isə Müzəffər Ordumuz Aprel döyüşləri ilə təməli qoyulan, Vətən müharibəsində möhkəmləndirilən qələbələr seriyasını məntiqi sonluqla tamamladı və ərazilərimizdə erməni separatizminin kökünü birdəfəlik kəsdi.

***Mübariz ABDULLAYEV***

# Məsuliyyət İrəvanın üzərindədir!

## ABŞ və Aİ Ermənistanı müharibəyə hazırlaşdırır

Ötən ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirləri Azərbaycanın bütün ərazilərində suverenliyinin təmin edilməsi ilə nəticələndi. Regiondakı açıq separatizm meyllərini böyük miqyasda aradan qaldıran antiterror tədbirləri Cənubi Qafqazın sabit və təhlükəsiz zona kimi qlobal iqtisadi xəritəyə daxil olmasını şərtləndirdi. Təbii ki, yaradılan təhlükəsizlik arxitekturası həm də gələcək üçün mühüm perspektivlər yaradır. O baxımdan ki, bəlkə də tarixində ilk dəfə qlobal iqtisadi nizama müstəqil subyekt kimi daxil olmaq şansı əldə edən Cənubi Qafqaz özünün yeni inkişaf tarixinin əsasını qoyacaq. Bu reallıqların formalaşması isə Azərbaycanın apardığı uğurlu siyasi-iqtisadi fəaliyyətin nəticələridir.

### Qərb həzm edə bilmir...

Tarixən geoiqtisadi və geostrateji əhəmiyyəti ilə göz oxşayan Cənubi Qafqazın belə bir uğurlu inkişaf perspektivi qazanması isə təbii ki, bir sıra böyük güclərin planları ilə uyğun gəlmir - bunun nəticəsidir ki, 2020-ci il Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycanın sülh təklifləri bu və ya digər şəkildə həmin güclər tərəfindən manipulyasiyaya uğradılırdı. Cənubi Qafqazın ən "zəif bəndi" sayılan Ermənistandan öz məqsədləri üçün istifadə edən bu güclər 2023-cü il antiterror tədbirlərindən sonra açıq "tərk-silah" edildilər:

- Onlar artıq əvvəlki kimi separatizm üzərindən Cənubi Qafqaza nüfuz etmək imkanlarını itirmişdilər;

- Siyasi proseslərə yön vermək kimi "xüsusi imtiyazlarını" itirmişdilər;

- Dövlətlərarası məsələlərin həllində "orbitr" olmaq şanslarını "əldən vermişdilər;

- ATƏT-in Minsk qrupu kimi korporativ maraqların təminatçısı olan "strukturun" təbii şəkildə ləğvinin ardından bölgənin iqtisadi-siyasi həyatında iştirak imkanından məhrum olunmuşdular.

Və nəticə etibarı ilə regionda yeni iqtisadi aktorla - təxminən "Cənubi Qafqaz birliyi" kimi proyeksional iqtisadi platforma ilə üz-üzə qalırdılar. Burada əsas diqqət çəkən məqam ondan ibarətdir ki, yeni iqtisadi aktorun aparıcı ünsürü kimi çıxış edən Azərbaycan özünün yürütdüyü müstəqil siyasət kursunu bütövlükdə Cənubi Qafqaz üçün transformasiya edir - nəticədə ABŞ, Aİ kimi özünü "dünya hegemonu" sayan iqtisadi-siyasi faktorlar region üzərində iqtisadi - siyasi "nəzarət" funksiyasını əldə edə bilmirlər. Ən əsası həm ABŞ, həm də Aİ reallıqları görür - Azərbaycan dünyanın yeni iqtisadi mərhələsini yaradır. Onlar bu prosesdən kənarda qalmağı həzm edə bilmirlər.





### Ermənistan Cənubi Qafqazda təhdidə çevrilib

Siyasi cəhətdən təsiretmə imkanları fiaskoya uğrayan ABŞ-Aİ birliyi regionda diskomfort yaratmaq üçün yenidən ən "zəif bənd"ə - Ermənistana üz tutdu. 2022-ci ilin sonu. 2023-cü ilin əvvəlində Ermənistana yerləşdirilən və "mülki müşahidə missiyası" kimi təqdim olunan kəşfiyyat qrupu faktiki olaraq Ermənistan daxilində qeyri-adekvat mövqenin formalaşmasına "xüsusi təkan" verdi. Fransanın nəzarətində olan bu "qrup" get-gedə silahlanma arealanı, kəmiyyət mahiyyətini artıraraq Ermənistanda yeni müharibə ab-havasını qızışdırmağa başladı. 2020-ci və 2023-cü ildə "lazımi dərsini" almış Ermənistan isə ABŞ-Aİ qruplaşmasının bu fitnəsinə uyaraq yeni müharibə "havasına" girib. Artıq bir müddət idi ki, Azərbaycanın rəsmi strukturları Ermənistanın şərti sərhəddə canlı qüvvə və zirehli texnika cəmləşdirilməsi haqda məlumatlar verir, bəyanatlar yayırdı. Son dövrlərdə şərti sərhəd ərazisində tez-tez hərbi təxribatlara əl atılması, Ermənistandan Azərbaycan Ordusunun mövqelərinə atəş açılması isə İrəvanın yeni təxribatlar axtarışında olduğunu deməyə əsas verirdi. Maraqlıdır ki, bu hərbi təxribatlar paralel olaraq həm də siyasi təxribatlarla müşayiət olunurdu. Bir tərəfdən fransalı hərbçilərin "mülki missiyanı ziyarət" adı altında Ermənistana etdikləri "səfərlər", digər tərəfdən isə Yunanıstanın müdafiə nazirinin "dili ilə" yeni "hərbi əməkdaşlıq" anonslarının səsləndirilməsi İrəvanın yeni müharibəyə stimullaşdırılması üçün əsas yaradırdı. Nəzərə alsaq ki, artıq uzun müddətdir ki, Fransa və Hindistan Ermənistanı aktiv şəkildə silahlandırır, demək ki, bölgədəki sabitliyin pozulması üçün "kollektiv iş" aparılır.

### Hərbi hədəflər sıradan çıxarılıb...

Yeri gəlmişkən, Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirlərinin ilkin mərhələsində Ermənistan silahlı qüvvələrinin səngər, atəş mövqeyi və dayaq məntəqələrində, eləcə də daimi dislokasiya yerlərində əvvəlcədən yerləri müəyyənləşdirilmiş izləmə-müşahidə vasitələri legitim hərbi hədəf olaraq sıradan çıxarılıb. Müdafiə Nazirliyinin aprelin 1-də yaydığı xəbərə görə, Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən çox optik-elektron və müşahidə kameraları bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək, onlara qarşı müxtəlif xarakterli təxribat fəaliyyətləri həyata keçirmək məqsədilə kustar üsulla hazırlanaraq 480 kilometrədək təmas xətti boyunca 10-15 və 20-30 metr hündürlükdə quraşdırılıb.

Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları Ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

Göründüyü kimi, Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları bu dövlətin və arxasında dayanan qüvvələrin yeni məkrli planlarından xəbər verir. Baş verənlər ABŞ və Aİ-nin Ermənistanla planlaşdırdığı 5 aprel görüşünün nəticələridir - regionda üçlü hərbi alyans yaradılır. Ermənistanı yeni müharibəyə "həvəsləndirən" ABŞ və Aİ bununla da Cənubi Qafqazın təhlükəsizlik mənzərəsinə xələl yetirmək istəyirlər. Üzdə Ermənistanın "dəstəkçisi" kimi görünməyə çalışan bu qüvvələr İrəvandan sadəcə öz məqsədləri üçün istifadə edirlər. Ermənistan isə bu "dəstəkdən" cəsarətlənir - nəticədə bu dövlət bölgənin ümumi təhlükəsizlik arxitekturasına təhdid yaratmaqda davam edir. Azərbaycan dövləti artıq bir müddətdir ki,

### Ermənistan 5 aprel görüşündən "həvəslənir"...

Ermənistanın yeni müharibə axtarışında olduğunu, sülhə bağlı çağırışlara adekvat cavab vermədiyini bildirir və rəsmi İrəvanın bölgədə qeyri-adekvat davranışlar nümayiş etdirdiyini faktlarla sübut edir. Ermənistan anlamır ki, 5 aprel görüşündən "həvəslənərək" bölgədə yeni revanşizm arzuları qurmaq onun özünə baha başa oturacaq - baş verənlərə görə məsuliyyət isə Ermənistanın və onun havadarlarının üzərinə düşür...

### Qərbin ikiüzlü və riyakar siyasətinin növbəti ifşası

Hər zaman özünün məkrli və dağıdıcı üzünü "demokratiya pərdəsi" altında gizləyən Qərb artıq kartlarını açmaq məcburiyyətindədir. Dünya birliyinin gözü önündə Qərb Cənubi Qafqazda Ermənistanın əli ilə yeni müharibəyə başlamağı hədəfləyib və bu aydın şəkildə görünür. Qərbin riyakarlığı isə bütün komponentləri ilə ortadadır. 30 ilə yaxın ATƏT-in Minsk qrupu həmsədri adı ilə bölgəyə turistik səfərlər edən Qərb marağı nə üçün Ermənistana təzyiq göstərmirdi? Tarixə qovuşmuş 30 illik işğal dövründə ABŞ və Aİ işğala məruz qalan Azərbaycan üçün niyə bu kimi konfranslar təşkil etmirdi? İşğala məruz qalmış Azərbaycanın deyil, işğalçı Ermənistanın yanında yer alan Qərb bunun öz simasını bir daha ortaya qoymuş oldu - hətta Vətən müharibəsindən sonrakı dövrdə belə davam edən mina terroruna son verməsi üçün Ermənistana hər hansı təsir göstərilmədi. Dünyanın əksər nöqtələrində "demokratiyaya dəstək", "quruculuq", "abadlıq" işləri apardığının reklamını edən Qərb nə üçün niyə 30 ildən sonra işğaldan azad edilmiş bölgələrimizdə hər hansı bir quruculuq layihəsi reallaşdırmadı? Davamlı sülhə nail olunması, Ermənistanın əsassız iddialardan əl çəkməsi kimi müsbət irəliləyiş yerinə Qərb İrəvanda "müharibə məşqi" edir, Ermənistan üçün yeni müharibəyə şərait yaradır, mini-Nato mexanizmi formalaşdırır və nəhayət bu ölkəni Azərbaycana qarşı silahlandırır. Bütün bunlar isə Qərbin ikiüzlü və riyakar siyasətinin növbəti ifşasıdır...

*Pərviz SADAYOĞLU*

# Qərbin "binoklu" da işə yaramır

Cənubi Qafqazda yeni situasiyanın formalaşması sirr deyil. Ötən ilin sonunda Ermənistan ilə Azərbaycan arasında müşahidə olunan bəzi proseslər iki dövlətin vasitəçisiz təmaslar qurma imkanları ilə bağlı ümidləri ortaya çıxarmışdı. Ölkələrin delimitasiya üzrə müvafiq komissiyalarının sərhəddə görüşməsi, ar-



dından isə iki dövlətin rəsmi strukturlarının birgə açıqlama yayması, qarşılıqlı şəkildə hərbçilərin azad edilməsi istiqamətində addımlar və nəhayət, Ermənistan tərəfinin sülhlə bağlı bəzi fikirlər səsləndirməsi prosesin uğurlu nəticəyə tərəf yol alacağına inam formalaşdırırdı.

Amma deyəsən, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsində maraqlı olmayan bəzi dairələr "anti - sülh" mahiyyətli yeni planlarını davam etməkdə israrlıdırlar. Məsələn, əvvəllər heç bir siyasi-ictimai mahiyyət daşımadığı, sadəcə olaraq müşahidə üçün üçün Ermənistana yerləşdirildiyi bildirilən Aİ-nin "müşahidə missiyası"nın əsl "fəaliyyət mexanizmləri" tam şəkildə üzə çıxır. Bu qrupdan monitorinq missiyası mahiyyətindən daha çox Ermənistanı sülhdən uzaqlaşdırmaq üçün təzyiq vasitəsi kimi istifadə olunduğu artıq tam şəkildə ortadadır. Bu missiyanın "əsl siması" artıq hər kəsə bəllidir. Onların daha çox kəşfiyyat xarakterli fəaliyyətlə məşğul olması sirr deyil. "Binokl planı"nı özünün ən vacib hərəkət mexanizminə "çevirən" bu qrup ara-sıra xarici ölkələrin Ermənistandakı səfirlərini, İrəvanda qonaq olan amma sülh məsələsinə ən minimum dəxli olmayan xarici nümayəndələri şərti sərhədə gətirir, onların Azərbaycan torpaqlarına "boylanan yerdə" şəkillərini çəkir paylaşırdı. İndi isə...

Son günlərdə Ermənistanın şərti sərhəd ərazisinə canlı qüvvə, zirehli texnika daşıması sirr deyil - bununla bağlı Ermənistan KİV-i də kifayət qədər məlumat yayıb. Digər tərəfdən, Azərbaycanın rəsmi strukturları da bir neçə dəfə bu məsələyə toxunaraq Ermənistanın regionda yeni hərbi hərəkətlənmələrə yol verməsi ilə bağlı fikirlər səsləndiriblər. Aprelin 1-də isə Azərbaycanın  Müdafiə Nazirliyi ordumuzun Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirlərinin ilkin mərhələsində Ermənistan silahlı qüvvələrinin səngər, atəş mövqeyi və dayaq məntəqələrində, eləcə də daimi dislokasiya yerlərində əvvəlcədən yerləri müəyyənləşdirilmiş izləmə-müşahidə vasitələri legitim hərbi hədəf olaraq sıradan çıxarması ilə bağlı məlumat yayıb. Demək ki, Ermənistan yeni müharibə axtarışındadır - belə olmasaydı, regionda Azərbaycanı izləmək üçün kəşfiyyat - diversiya aparatları quraşdırılmazdı. Aprelin 5-də Brüsseldə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşöncəsi Ermənistan Aİ-nin "missiyası"nın həvəsləndirmələrinə bu cür "əməl edib".

Bununla belə, Aİ hələ də özünün qeyri-standart açıqlamaları ilə gündəmə gəlir - Azərbaycanın rəsmi strukturlarının Ermənistanın təxribat əməllərini faktlarla sübut etdiyi halda, Aİ-nin Gürcüstan və Cənubi Qafqazdakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaar qurumun Ermənistandakı missiyasının Ermənistan-Azərbaycan sərhədində "qeyri-adi hərəkətlər müşahidə olunmadığını" bildirən qeydinə reaksiya verir.

Birincisi Aİ-nin Ermənistandakı "binoklu" deyəsən artıq işə yaramır - Qərbin "durbini" ya xarab olub, ya da qabağı qara parça ilə örtülüb. Əks halda, özünü demokratiya carçısı, keşikçisi adlandıran, "nizamlayıcı", "tənzimləyici" funksiyada görən "binoklu avropalılar" Ermənistanın sərhəd xəttindəki hoqqaları etiraf edər, bununla bağlı lazımi izahatı ortaya qoyardılar. İkincisi isə, Aİ-nin "binoklu"nun Ermənistanın törətdiklərini görməməsi təbii qarşılanmaladır. Çünki Ermənistanı yeni müharibələrə həvəsləndirən, cəsarətləndirən, onu silahlandıran, Cənubi Qafqazda sülhə təhdid kimi formalaşdıran elə Aİ-nin özü deyilmi? Axı, Aİ fəaliyyətinin "bəhrəsi" kimi meydana çıxan təcavüzkar Ermənistanla bağlı necə ədalətli mövqe etiraf edə bilər?

Toivo Klaar isə "siyasi dəvəquşu" rolunu uğurla "oynamaqda" davam et-

### Toivo Klaarın yalanı, Aİ-nin "durbini"...



məyə niyyətlidir. Ermənistanı müharibəyə stimullaşdıran gücün elə Aİ olması faktından hər kəs xəbərdardır - bunun qarşılığında isə Toivo Klaar yenə də utanmadan "Aİ-nin Ermənistandakı missiyasından təsdiq almaq çox xoşdur, hərbçilərin qeyri-adi hərəkətləri müşahidə edilməyib. Missiyanın məqsədi budur: daha çox şəffaflığı təmin etmək və inam yaratmaq", kimi fikirlər səsləndirir. Avropa özünü elə bir situasiyaya salıb ki, bunun adını tapmaq çox çətindir - illərdir ki, ədalətin yanında yer aldığını iddia edən Qərb açıq şəkildə təcavüzü, işğalı və separatizmi dəstəkləyir. Azərbaycana qarşı haqsız iddialarından əl çəkməyən Ermənistanı "dəstəkləməklə" Aİ "durbinçi"lərini sərhəddə məhz bu çirkin plan üçün göndərdiyini təsdiqləyir. Azərbaycan artıq aylardır bu "missiyanın" bölgə üçün mühüm təhdid olduğunu bəyan edir, digər bölgə dövlətlərinin məsələyə aktiv şəkildə münasibət bildirməsini gözləyir. Axı, hər şey ortadadır - bu gün Ermənistanın hərbi eskalasiyaya yönəlik addımını "təkzib edən", Ermənistanın şərti sərhədə yığdığı hərbi texnikanı və canlı qüvvəni "hərəkətsizlik" kimi "qeydə elan" Aİ "durbinçiləri"nin növbəti planının nə olacağını düşünmək belə dəhşətlidir. Bu güclərin öz maraqları xatirinə dinc regionlarda müharibələr başlatması, bölgələrdə qarşıdurmalar yaradaraq öz niyyətlərini həyata keçirməsi sirr deyil və ilk dəfə baş vermir. Bununla bağlı onlarla misallar mövcuddur. Bu mənada, Toivo Klaarın yalanı da elə Aİ-nin "durbini" boydadır...

*SADİQ*

# İcma tələb edir!



### Ermənistan məsuliyyətini etiraf etməli, azərbaycanlıların təhlükəsiz şəkildə geri qayıtmasına şərait yaratmalıdır

1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycanın deyil, bəşər tarixində də ən qanlı faciələrdəndir. Qonşu xalqların torpaqlarını zəbt edərək "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək məqsədi güdən ermənilər tarix boyunca soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Bütün bunlar öz miqyasına və nəticələrinə görə həm beynəlxalq hüquq normaları ilə təsbit olunmuş konvensiyalara, həm də mənəvi-əxlaqi kodekslərə əsasən insanlığa qarşı və bəşəriyyət əleyhinə törədilmiş cinayətlər sayılır. Bu soyqırımı hadisələrinin ən dəhşətlilərindən biri də daşnak-bolşevik silahlı dəstələri tərəfindən 1918-ci ilin mart-aprel aylarında qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Azərbaycan tarixinə "31 Mart soyqırımı" kimi yazılan həmin hadisələr zamanı on minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə amansızcasına qətlə yetirilib.

106 il əvvəl daşnak-bolşevik işğalçıları Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə azərbaycanlı əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədərək 70 mindən çox günahsız insanı xüsusi qəddarlıqla qətlə yetirib, şəhər və kəndləri yandırıb, sakinləri yurd-yuvalarından didərgin salıblar. Onlar uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirib, diri-diri yandırıblar. Bakı qəzasında 229, Gəncə qəzasında 272, Zəngəzur mahalında 115, Qarabağda isə 157 kənd yerlə-yeksan edilib.

Bütün dünyaya uydurma "erməni soyqırımı" ilə bağlı car çəkən Ermənistan əslində azərbaycanlılara qarşı törətdiyi gerçək soyqırımılarına görə məsuliyyəti öz üzərinə götürməlidir. Yeri gəlmişkən, bu məqam Qərbi Azərbaycan İcmasının 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanatında da əksini tapır. Bəyanatda bildirilir ki, Ermənistanın və erməni silahlı qruplaşmalarının azərbaycanlılara qarşı törətdiyi çoxsaylı soyqırımı aktlarından biri olan 1918-ci il martın 31-də erməni-bolşevik silahlı qruplarının Bakı şəhərində azərbaycanlıları kütləvi qətliamının tarixi ilə götürülmüş həmin gün bir hüzn günü olmaqla yanaşı, həm də bu cinayətləri törədənlərin hələ də cəzasız qalmasına dair bəşəriyyətə bir xatırlatmadır. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı fərmanında da bildirildiyi kimi, azərbaycanlılara qarşı soyqırımı əsrlər ərzində aparılıb və əsas məqsədi tarixi Azərbaycan ərazilərini ələ keçirmək olub.

Azərbaycan xalqına qarşı soyqırımı etnik nifrət aşılayan irqçi ideologiya zəminində sistemli şəkildə həyata keçirilib və tarixi Azərbaycan torpaqlarının demək olar ki, bütün hissələrində törədilib. 1905-ci ildən intensivləşməyə və açıq forma almağa başlamış bu soyqırımı Azərbaycanın qərb hissəsində xüsusilə amansız olub. Ermənistan ordusu 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib və etnik təmizləmə həyata keçirib. Yüz minlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başladılar. 1948-52, 1987-91-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulublar. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb. 1918-ci il martın 31-də Bakıda ifrat millətçi "Daşnaksütyun" partiyasının silahlı birliyi tərəfindən törədilmiş kütləvi qətliamı əvvəlki və sonrakı dövrlərdə tarixi Azərbaycan torpaqlarında xalqımıza qarşı həyata keçirilmiş genişmiqyaslı soyqırımı təcəssüm edən dəhşətli bir hadisədir.

Bəyanatda qeyd olunur ki, Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən irqçi siyasətini davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur, azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlər və terror aktları törətmiş Qaregin Njde, Andranik Ozanyan, Drastamat Kanayan, Monte Melkonyan kimi ünsürləri şöhrətləndirilir və Njdeizm kimi irqçi ideologiyanı dövlət səviyyəsində təşviq edir. "Biz Ermənistandan soyqırımı cinayətlərinə görə məsuliyyətini etiraf etməyi və barışıq naminə zəruri addımları atmağı tələb edirik. Ermənistan oradan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına şərait yaratmalı və dağıtdığı Azərbaycan mədəni irsini bərpa etməlidir. Həmçinin Ermənistan azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dayandırmalı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməli, onları şöhrətləndirməyə dərhal son verməli, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməli və aparılmış yer adları dəyişikliklərini ləğv etməlidir",-deyə bəyanatda vurğulanır.

*N.BAYRAMLI*

# Tarixi unutmayaq!

## Kəlbəcər necə işğal edilmişdi?

Aprelin 2-i Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu gündür. Əsrarəngiz təbiəti və yeraltı-yerüstü sərvəti ilə Azərbaycanın bənzərsiz rayonlarından biri olan Kəlbəcər hər zaman öz strateji əhəmiyyətini qoruyub və bu gün də əsas strateji məntəqələrdən biridir. Təsadüfi deyil ki, düşmən Qarabağ və ətrafındakı 7 rayonla bağlı danışıqlar aparılan zaman məhz, Kəlbəcər və Laçını xüsusilə əllərində saxlamağa çalışırdılar.

Xatırlatmaq yerinə düşər ki, Kəlbəcər Ermənistanla sərhəd rayonudur. Şimaldan Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdən Tərtər, şərqdən Ağdam, Xocalı, cənubdan isə Laçın rayonları ilə əhatə olunub. Rayondan məcburi köçkün düşənlərin 22 faizi Gəncədə, 14 faizi Bakıda, 12 faizi Goranboyda, qalan hissəsi ölkənin müxtəlif şəhər və rayonlarında məskunlaşıblar.

Kəlbəcər ən qədim insan məskənlərindən biri kimi tanınır və mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri də bu yerlərdə yaradılıb. Rayonun dağ qalaları içərisində ən əzəmətlisi Lex qalasıdır. Lex qalası XIII-XIV yüzilliklərin abidəsidir. Ümumiyyətlə, Kəlbəcərdə dünya əhəmiyyətli 2 tarix-mədəniyyət abidəsi var, onlar Gəncəsər və Xudavəng monastrlarıdır. Bundan başqa, rayon ərazisi mədəniyyət abidələri və dini məbədlərlə zəngindir. Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədulla ziyarətgahı uzun illər işğal altında qalaraq Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb.



1993-cü ildə Kəlbəcərin işğalı nəticəsində 511 dinc sakin öldürülüb, 321 nəfər əsir götürülüb və itkin düşüb. Nəticədə, 60 min kəlbəcərli ölkənin 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarla tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, yüzlərlə maşın, texnika və sair talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb.

Həmin dövrdə hakimiyyətdə olan AXC-"Müsavat" cütlüyünün səriştəsiz və xəyanətkar siyasəti rayonun işğalına şərait yaratdı. Vaxtilə siyasi hakimiyyətə gəlmək üçün bütün vasitələrə əl atan həmin qüvvələr bu yolda hətta suverenliyimizi belə təhlükə altında qoymaqdan çəkinməmişdilər. Məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız ermənilər tərəfindən ard-arda ələ keçirilmişdi. Xatırladaq ki, həmin dövrdə Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi və nə olursa-olsun, hakimiyyətə gəlmək istəyən Azərbaycan Xalq Cəbhəsi bu yolda bütün xəyanətlərə əl atırdı. 1993-cü ilin aprelində isə onların yaratdığı xaos, siyasi böhran, özbaşınalıq Kəlbəcərin də ermənilər tərəfindən işğal edilməsi ilə nəticələndi.

**Qara "2" qızıl "25"lə əvəzləndi**

Noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcər rayonunun Ermənistanın işğalından azad olunduğu gün kimi düşdü. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə bəyanata əsasən, Ermənistan Kəlbəcər rayonunu noyabrın 15-də boşaltmalı və ərazini tam olaraq Azərbaycana təhvil verməli idi. Lakin bu, 15 noyabrda reallaşmadı. Ermənistan vaxtın azlığını və relyefin çətinliyini əsas göstərərək noyabrın 25-dək vaxt istədilər. Rusiyanın xahişi ilə sonradan Ermənistana 10 gün əlavə möhlət verildi. Artıq noyabrın 25-də erməni silahlı birləşmələri və orada qeyri-qanuni məskunlaşdırılan əhali Kəlbəcəri rahat və təhlükəsiz şəkildə boşaltdı.

Vurğulamaq yerinə düşər ki, Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın atdığı addım bütün beynəlxalq konvensiyalara və hüquq normalarına uyğundur.

Şübhəsiz ki, tariximizin qara səhifələri olan o illər heç zaman unudulmamalıdır. Bu tarix yaddaşlarımızda hər an təzələnməlidir ki, gələcək nəsillər bizim səhvlərimizi təkrar etməsinlər.

*Yeganə BAYRAMOVA*

# 16-cı kütləvi məzarlıq...

## Araşdırmalar davam edir

Ermənistanın işğalçı siyasəti dövründə azərbaycanlıların qətlə yetirilməsi və kütləvi şəkildə basdırılmasını sübut edən faktların sayı artmaqdadır. 30 illik işğalçılıq zamanı xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədilib. Bu cinayətlər sırasında Birinci Qarabağ müharibəsi dövründə 4 minə yaxın azərbaycanlının itkin düşməsi və onlara qarşı qeyri-insani rəftar xüsusi yer tutur. Ermənistan hələ də onların taleyi haqqında heç bir məlumat vermir. Bu isə beynəlxalq cinayətdir. Ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunduqdan sonra erməni vəhşiliyi faktlarla ortaya çıxır. İşğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bunu təsdiqləyir.

Martın 31-də Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupu rəhbərinin müavini Eldar Səmədov jurnalistlərə açıqlamasında deyib ki, indiyədək azad edilən ərazilərdə 16 kütləvi məzarlıq müəyyən edilib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin tapşırığına əsasən, azad edilən ərazilərdə axtarış, ekshumasiya, qazıntı işləri aparılmaqdadır.

Xatırladaq ki, ilk olaraq Fərrux yüksəkliyində, Daşaltı kəndində, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqlar aşkar edildi. Daha sonra, Kəlbəcərin Başlıbel kəndində, Şuşa türməsinin ərazisində, Ağdam rayonunda, Kəlbəcərdə də belə məzarlıqlar üzə çıxarıldı. Bu yaxınlarda isə Xocalı soyqırımının qurbanlarının bir hissəsinin kütləvi basdırıldığı ərazilər aşkarlandı. Bütün bunlar erməni vandalizminin göstəriciləridir. Kütləvi məzarlıqda aşkar olunan cəsədlərdə zorakılıqlar aşkar olunub, inanlar əli qandallı basdırılıblar. Bütün bunlar ermənilərin insanlığa qarşı cinayətləridir. Müvafiq qurumlar DNT analizi vasitəsilə həmin cəsədlərin kimə məxsus olduğunu müəyyən edir. Artıq onların bəziləri müəyyən edilərək doğmalarına təhvil verilib.

Yeri gəlmişkən, Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça fabrikinin yaxınlığında) aparılan qazıntı işləri zamanı kütləvi məzarlıqda qalıqları aşkarlanan və şəxsiyyətləri dəqiqləşdirilmiş 7 nəfərin cənazəsi martın 31-də Xocalıda yeni salınan Şəhidlər xiyabanında dəfn edilib. Əvvəlcə Bərdə rayonunda məcburi köçkünlər üçün salınmış şəhərcikdə vida mərasimi keçirilmiş, sonra cənazələr Xocalıya yola salınmışdı. Dəfn mərasimində mərhumların yaxınları, dövlət qurumlarının rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb və aşkar olunmuş kütləvi məzarlıqlarda onların bəzilərinin qalıqları eyniləşdirilib. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır. Bugünlərdə Xocalı soyqırımının qurbanı olan bir neçə nəfərin cəsədlərinin kütləvi məzarlıqda aşkarlanması da bunu təsdiqləyir.

İnsanlığa qarşı törədilən bu cinayətlər cəzasız qalmamalıdır və qalmır. 44 günlük Vətən müharibəsində xalqımıza qarşı cinayətlər törətmiş ermənilərin bir qismi öz cəzalarını aldılar. Eləcə də, ötən ilin sentyabr ayında Qarabağda keçirilmiş antiterror tədbirləri zamanı separatçılar diz çökdürüldü, onların başçıları həbs olunaraq Bakıya gətirildilər. Bu canilər törətdikləri cinayətlərə görə cavab verəcəklər. Lakin minlərlə azərbaycanlının taleyi haqqında hələ də məlumat yoxdur. Ermənistan tərəfi bu məlumatları verməlidir. Ermənistana öz öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq səviyyədə təzyiq göstərilməlidir. Çünki itkin düşmüş azərbaycanlıların taleyi haqqında məlumat vermək rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliklər sırasındadır. Bununla belə, itkin düşmüş həmvətənlərimizin taleyi ilə bağlı dövlətimiz bütün imkanlardan istifadə edir.



Qeyd edək ki, Xocalıda kütləvi məzarlıqda tapılan daha bir nəfərin şəxsiyyəti müəyyənləşib. Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.

Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində aşkar edilmiş insan qalıqlarının müayinəsi zamanı onların 18 nəfər şəxsə məxsus olması (4 nəfərin azyaşlı olması ehtimal edilir), müxtəlif üsullarla işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalmaları, fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları, həmişə tapıla bilmələri üçün lazımi qaydada qorunmaları və nişanlanmalarının təmin olunmaması müəyyən edilib.

Həmçinin aşkar edilmiş insan qalıqları xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırılıb.

Baş Prokurorluq tərəfindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, həmçinin iş üzrə əhəmiyyət kəsb edən digər halların müəyyən edilməsi məqsədilə ekspertiza və laborator müayinələr aparılır, eləcə də digər zəruri prosessual hərəkətlər həyata keçirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Ttibb Baş İdarəsi tərəfindən keçirilən məhkəmə-genetik ekspertizasının hazırkı mərhələsində Xankəndi sakini olmuş daha 1 nəfərin şəxsiyyəti müəyyən edilib. Bununla da, kütləvi məzarlıqda aşkar olunan insan qalıqlarından 10 nəfərin şəxsiyyəti müəyyən edilib. İstintaq materiallarına əsasən həmin şəxslər 26.02.1992-ci il tarixdə Xocalı rayonu ərazisində itkin düşüb.

Toplanmış materiallar Baş Prokurorluğun İstintaq İdarəsində ibtidai istintaqı aparılan cinayət işinə əlavə edilərək araşdırılır.

*NARDAR*

# Vatikandan sülhə çağırış

**Məğlub Ermənistanın postmüharibə dövründə tənzimləmə prosesinə töhfə vermək əvəzinə, revanşizm mövqeyi tutması və müxtəlif manipulyasiyalara əl atması regionda təhlükəsizliyə yeni təhdidlər yaradır və eskalasiya risklərini artırır. Bu da dünyada narahatlıqla izlənilir. Bu günlərdə Roma Papası Fransisk növbəti dəfə sülhə çağırış edib. "Ermənistan və Azərbaycan arasında danışıqlara çağırıram ki, beynəlxalq ictimaiyyətin dəstəyi ilə onlar dialoqu davam etdirsinlər, nəticədə sülh sazişi imzalansın", - deyə Papa bildirib.**



## Sülh prosesinin təşəbbüskarı qalib Azərbaycandır

Qalib Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı parlaq qələbələr sayəsində regionda yeni reallıqlar yaradıb. Bu reallıqlar təxminən otuz il ərzində Ermənistanın apardığı işğalçılıq siyasətinə görə təhdidlərlə, müharibə riskləri ilə üz-üzə qalmış Cənubi Qafqaz coğrafiyasında etimad mühitinin yaranması və əməkdaşlıq üçün möhkəm zəmin ola bilər. Regionun gələcəyi naminə bundan maksimum dərəcədə istifadə olunmalıdır.

Otuz illik işğal dövründə böyük məhrumiyyətlərlə üzləşən, bir milyondan çox vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşən Azərbaycan bütün bunlara baxmayaraq, müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmi nümayiş etdirir. Ölkəmiz o mövqedən çıxış edir ki, regionun potensialı müharibəyə deyil, inkişafa, əməkdaşlığa, iqtisadi layihələrin həyata keçirilməsinə yönəldilməlidir. Bundan ötrü Azərbaycanla Ermənistan arasında sərhədlər müəyyənləşdirilməli və sülh sazişi imzalanmalıdır. Yalnız bundan sonra iki ölkə arasında etimad mühitinin formalaşması mümkündür. Qeyd edək ki, respublikamız müharibə başa çatdıqdan dərhal sonra sülh təşəbbüsü ilə çıxış edib. Ölkəmiz postmüharibə dövründə qarşı tərəfə beş bənddən ibarət sülh paketi ünvanlayıb. Bu sənəd hazırlanarkən müharibənin qalib tərəfi olan Azərbaycan hansısa bir üstünlüklər qazanmaq, imtiyazlar əldə etmək niyyəti güdməyib, sırf beynəlxalq hüququ əsas götürüb.

Qalib Azərbaycan regionda davamlı sülhə nail olunması üçün vasitəçilərin səyi ilə aparılan danışıqlarda da fəallıq və konstruktivlik nümayiş etdirir. Respublikamızın zamanında dəstək verdiyi və fəal şəkildə qoşulduğu Brüssel formatı, təəssüf ki, məhz Ermənistanın və onun havadarı qismində çıxış edən Fransanın məsuliyyətsizliyi səbəbindən iflasa uğrayıb. Fransa birtərəfli qaydada Ermənistanı dəstəkləyir, silah tədarük edərək bu ölkəni revanşizmə ruhlandırır. Belə olan halda Azərbaycan Fransanın vasitəçiliyinə razılaşa bilərmi? Əlbəttə ki, yox! Vasitəçi səmimi olmalıdır və tərəf saxlamamamalıdır.

Hazırda respublikamız danışıqlar prosesinin ikitərəfli formatda və yaxud region dövlətlərinin iştirakı ilə aparılmasına daha çox üstünlük verir. Bu, sülhyaratma prosesinə ən konstruktiv yanaşmadır. Danışıqlar prosesində yer almaq istəyən kənar aktorlar mütləq öz maraqlarından çıxış edirlər ki, bu da prosesin uzanmasına gətirib çıxardır.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllinə cəlb olunmuş ATƏT-in Minsk qrupunun fəaliyyəti (əslində, fəaliyyətsizliyi - red.) buna əyani misaldır. Otuz ilə yaxın bir zaman kəsiyində aparılan danışıqlar substantiv nəticələr vermədi. Azərbaycan ərazi bütövlüyünü, suverenliyini, bununla da beynəlxalq hüququ öz gücünə təmin etmək məcburiyyətində qaldı.

Kommunikasiyaların açılması regionda sülh prosesinə ən sanballı töhfə olardı. Üçtərəfli Bəyanatın doqquzuncu bəndində bildirilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Azərbaycan postmüharibə dövründə dəfələrlə kommunikasiyaların açılması ilə bağlı çağırışlar edib. Respublikamız, həmçinin Naxçıvanla kommunikasiya əlaqələrinin bərpasına qısa müddətdə nail olmaq üçün Zəngəzur dəhlizinin avtomobil və dəmir yolları seqmentləri üzrə layihələrin reallaşdırılmasına start verib. Biz burada da Ermənistanın məsuliyyətsiz davranışlarının şahidi oluruq. İndiyədək bu ölkədə kommunikasiyaların açılması istiqamətində hansısa bir addım atılmayıb.

## Ermənistan sülh prosesini əngəlləyir

Qalib Azərbaycanın postmüharibə mərhələsində sülh prosesinə sadiq qalmasına rəğmən, məğlub Ermənistan sürüşkən mövqe sərgiləyərək hansı yollarlasa tənzimləmə prosesinə əngəllər yaratmağa çalışır. Bu ölkədə üçtərəfli Bəyanatın, digər formatlarda əldə olunan razılaşmalarının şərtlərinin pozulmasına yönəlik cəhdlər həm hakimiyyət dairələrindən, həm də müxalifət qüvvələrindən gəlir. Belə cəhdlər isə sülh prosesinə mənfi təsir göstərir.

Baş nazir Nikol Paşinyan indiyədək müxtəlif auditoriyalarda Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirib, kommunikasiyaların açılmasının ölkəsi üçün də böyük əhəmiyyət daşıdığına diqqət çəkib. Bu kimi açıqlamalarla N.Paşinyan, əslində Ermənistan cəmiyyətini reallıqla barışmağa, başqa çıxış yolu olmadığına inandırmağa çalışır. Əslində, forpost ölkə üçün doğru olan da elə budur. Ancaq məğlub ölkənin lideri siyasətində qətiyyətsizdir. O, müxalifətin təpkiləri qarşısında tez geri çəkilir və əvvəl dedikləri sözləri bir növ geri götürür. Baş nazirin belə qeyri-ardıcıllığı sülhyaratma prosesində hansısa bir mərhələdə əldə olunan razılaşmlara xələl gətirərək nəticədə onların üstündən xətt çəkir.

Ermənistanın üçtərəfli Bəyanatda nəzərdə tutulan kommunikasiyaların açılması öhdəliyindən yayınmasından bəhs etdik. N.Paşinyan həmçinin "Azərbaycanın ərazi bütövlüyünü tanıyır" deməsində də səmimi görünmür. Məlumdur ki, son vaxtlarda sərhədlərin delimitasiya və demarkasiya olunması istiqamətində fəaliyyətlərə başlanıb. Prosesin uğurlu getməsi üçün Ermənistan ilkin mərhələdə Azərbaycanın dörd anklav olmayan kəndini geri qaytarmalıdır. Həmin kəndlərin Azərbaycana məxsus olduğunu N.Paşinyanın özü və komandasının digər üzvləri də dönədönə təkrarlayıblar. Ancaq daş yerindən tərpənmir. Belə ki, ilkin razılaşmanın müddəti bitsə də, qarşı tərəf əraziləri Azərbaycana təhvil verməyə tələsmir. Bunun əvəzində N.Paşinyan və digərləri yeni müharibə risklərindən danışır və regiona kənar güclərin gəlməsinə nail olmağa çalışırlar. Belə yanaşmalar isə, təbii ki, sülh prosesinə ciddi maneələr yaradır.

*MÜBARİZ*

# KTMT-də "donan" İrəvan Aİİ-dəki fəaliyyətini necə davam etdirəcək?

Süni şəkildə "Qərbi inteqrasiya" iddiası irəli sürən Ermənistan bu "ad" altında regionun iqtisadi-siyasi həyatını və maraqlarını təhlükə qarşısında qoyur. Bu dövlətin geocoğrafi strtukturu, iqtisadi və hərbi təmayülü, o cümlədən sosial həyatı belə birtərəfli "Qərbi inteqrasiya" mövzusunu istisna edir - rəsmi İrəvan anlamır ki, "mən yoxam" deməklə Ermənistan özünü iqtisadi-sosial defoltun bir addımına sürükləyir.

Bu ölkənin siyasi rəhbərliyi fərqli güclərin, xüsusilə ABŞ və Aİ-nin "əl oyancağı"na çevrilməklə yeni reallıqlar formalaşdıracağını düşünür. Amma bu kimi bəsit düşüncə ilə sadəcə özünü uçurumun bir addımına "yetirə bilən" Paşinyan hakimiyyəti ciddi təlatümlərlə qarşı-qarşıya olduqlarını deyəsən hələ dərk etməyiblər. "KTMT-dəki fəaliyyətimizi dondurduq" deyibən illərdir tavanı altına sığındığı hərbi ittifaqa arxa çevirən Ermənistan Fransa və digər yeni "çətirinin" silah-sursatına susayıb. Amma düşünmür ki, "müttəfiqi" saydığı Ukraynaya belə köhnə silah-sursat sırayan Aİ və ABŞ Ermənistanı hansı situasiyalarla üz-üzə qoyacaq. Bu gün hərbi mövcudluğunu Cənubi Qafqaza daşımaq üçün Ermənistana ilğım xarakterli vədlər verənlər bir zamanlar fərqli coğrafiyalarda çox dövləti müharibəyə sürükləmişdi - sonda baş verənlər isə hər kəsə bəllidir. ABŞ və Aİ-nin hər zaman öz maraqları çərçivəsində "əməkdaşlıq müstəvisi" formalaşdırdığını Ermənistan da anlayır.



Belə demək mümkündürsə, Ermənistan ABŞ ilə Aİ-nin "şirin vədlərinə" uyub bölgədə qeyri-adekvat mövqedən çıxış etməzdən qaba qiki dəfə düşünməlidir - İrəvan "hərbi fon"unu bir anda KTMT-dən "NATO-ya" dəyişəcəyini fikirləşir. Tutaq ki, lap belə oldu - Ermənistan üzərindən plan quranlar aprelin 5-də onu vaxtilə əməkdaşlıq etdiyi dövlətlərlə tam düşmən mövqeyinə "otuzdura" bildilər: başqa sözlə, Aİ ilə ABŞ Ermənistanı anti - Rusiya əhvalına tam şəkildə uyğunlaşdıraraq Kremlin hərbi mövcudluğunun qısa zamanda Ermənistandan çıxarılmasına "nail oldular". Bəs, iqtisadi məsələlər necə tənzimlənəcək? Ermənistan üzvü olduğu Avrasiya İqtisadi İttifaqına necə arxa çevirəcək.

**Ticarət dövriyyəsi: Aİİ Aİ-dən 6 dəfə öndədir...**

Bəzi arayışlara diqqət yetirək: Ermənistanın 2023-cü ilin 11 ayı ərzində MDB ölkələri ilə xarici ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 39,3 faiz artaraq 6 747 186,1 min ABŞ dolları təşkil edib. Ermənistanın ən böyük xarici ticarət tərəfdaşları isə Rusiya (2023-cü ilin yanvar-noyabr ayları üçün ticarət dövriyyəsinin həcmi - 6 321 898,6 min dollar, 2022-ci ilin 11 ayı ilə müqayisədə artım - 40,8%), Belarus - (169 259,9 min dollar, artım - 1, 7%) və Qazaxıstandır (89 227,1 min dollar, artım - 2,3 dəfə).

Bunun qarşılığında isə 2023-cü ilin 11 ayında Ermənistanın Aİ ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi cəmisi 2 486 477,0 min dollar təşkil edib. Respublikanın Avropa ölkələri arasında ən böyük ticarət tərəfdaşı Almaniyadır ki, bu da Rusiya ilə ticari rəqəmdən 6 dəfə azdır - cəmisi 586 milyondur. Özünü "qəyyumu sayan" Fransa isə bu siyahıda daha aşağı yerlərdədir - iki ölkə arasındakı ticarət dövriyyəsi 165 milyon dollar təşkil edir.

**İdxal-ixrac göstəriciləri: Rusiya liderdir, Fransa gözə dəymir**

Statistik məlumatlara görə, 2023-cü ilin 11 ayı ərzində Ermənistandan MDB ölkələrinə ixracın həcmi 3 386 079,9 min dollar təşkil edib. İxrac həcminə görə ilk üçlükdə Rusiya yenə liderdir - 3 167 499,7 min dollar. Belarus 85 999,3 min dollarla ikinci, Qazaxıstan isə 65 667,2 min dollarla üçüncü yeri tutur.

Ötən ilin 11 ayında Aİ ölkələrinə ixracın həcmi 2022-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 5,5% azalıb - cəmisi 670 milyon ABŞ dolları təşkil edib. bu siyahıya Niderland başçılıq edir - Fransa isə siyahıda ümumiyyətlə yoxdur.

İdxalla bağlı da eyni situasiyanın şahidiyik: Statistikaya görə, 2023-cü ilin 11 ayı ərzində Ermənistana MDB ölkələrindən idxalın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,8 faiz artaraq 3 515 739,8 min ABŞ dolları təşkil edib. İdxal həcminə görə də ilk üçlükdə Rusiya (3 292 241,2 min dollar, artım 26,5%), Belarus (89 651,9 min dollar, 16,2 faiz azalma) və Ukrayna (76 748,0 min dollar, 1 faiz artım) .

Hesabat dövründə Aİ ölkələrindən idxalın həcmi isə yenə də dəfələrlə azdır və bu "siyahıda" da Almaniya, İtaliya və Niderland ilk üçlükdə qərarlaşıb. Fransa isə yenə də "gözə dəymir".

**Ermənistan siyasi əməkdaşlıq əlaqələrini təhlükə qarşısına qoyur...**

Bəli, bu rəqəmlər əslində Ermənistanın iqtisadi durumunu açıq şəkildə gözlər önünə sərir. Bu gün Rusiyaya "kəllə atan", onu təhdid etməyə çalışan, ABŞ ilə Aİ-nin kölgəsinə sığınaraq keçmiş müttəfiqini yoxdan sayan Ermənistan odla oynayır. KTMT-də özünü "donduran" Ermənistan görəsən iqtisadi sferada nə etmək fikrindədir? Axı, onun apardığı "siyasi xətt" ən böyük iqtisadi partnyorları ilə düşmənçiliyə yol açır. Belə olan halda Ermənistan bölgədə hansı perspektivdən danışa biləcək?

Beləliklə, Ermənistanın siyasi rəhbərliyinin yürütdüyü işğala əsaslanan və təcavüzkar siyasətin nəticələri bu ölkəni artıq təhlükələr qarşısında qoymaqdadır. Hərbi müttəfiqliyin ardından, iqtisadi partnyorluğun da üstündən xətt çəkməyə hazırlaşan Ermənistanı nələr gözləyir... Bunu bir sözlə ifadə etmək mümkün deyil.

*P.İSMAYILOV*

# İqtisadiyyatımızın yeni keyfiyyət parametrləri

## Azad sahibkarlıq inkişaf edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

Hər bir ölkədə bazar iqtisadiyyatını azad sahibkarlıq fəaliyyəti və liberal iqtisadiyyat olmadan təsəvvür etmək mümkün deyil. Sevindirici haldır ki, bu gün iqtisadiyyatımız yeni keyfiyyət parametrləri ilə artıq özünü təsdiqləyib. Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının təminatı özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafından əsaslı surətdə asılıdır.

Son illər ölkəmizin iqtisadi göstəricilərinə baxdıqda azad sahibkarlıq və liberal iqtisadiyyata təşviqin genişlənməkdə olduğunu görürük. Bütün bunlar iqtisadi sahədə yeni imkanları ehtiva edir. Prezident İlham Əliyevin siyasi kursuna nəzər yetirsək, məhz liberal iqtisadiyyatın inkişafı ilə bağlı məsələlərin diqqət mərkəzində saxlanıldığının şahidi oları. Belə ki, liberal iqtisadiyyatın dəstəklənməsi, sahibkarlara yeni imkanların yaradılması, kredit resurslarından istifadənin əlçatanlığı kimi görülən işlər həmin sahənin daha da inkişaf etdirilməsi ilə əlaqədardır. Sevindirici haldır ki, hazırda regionlarda kommunikasiyaların inkişaf etdirilməsi istiqamətində görülən işlər xarici investisiyanın cəlbi üçün əlverişli zəmin yaradır.

Bu gün istər yerli, istərsə də xarici kapital hesabına regionlarda yaradılan yeni istehsal müəssisələrinin qurulması fonunda yeni iş yerlərinin açıldığı müşahidə edilir. Yaxın gələcəkdə iqtisadi sahədəki bu prosesin daha da inkişaf edəcəyi proqnozlaşdırılır.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, hər bir ölkənin iqtisadi inkişafına təkan verən əsas elementlərdən biri azad sahibkarlığın və liberal iqtisadiyyatın formalaşdırılmasıdır. İqtisadçı qeyd edib ki, iqtisadiyyatda, xüsusən də biznes mühitində rəqabətin yaranması, eləcə də ölkədə sabit və davamlı iqtisadi mexanizmin yaradılması üçün zəmin zəruri hesab edilir: "Azad sahibkarlıq, eləcə də liberal iqtisadiyyat iqtisadi inkişafın dayanıqlığı baxımından vacibdir. Çünki nəticə etibarı ilə iqtisadiyyatın azad, liberal olması olduqca vacibdir. Bu, birmənalı şəkildə iqtisadiyyatda rəqabətin güclənməsinə və özəl sektorun payının artmasına imkan yaradır. Məşğulluğun genişlənməsi baxımından da bu vacib hesab olunur. Dayanıqlı inkişaf üçün liberal iqtisadiyyat əsas vasitədir. Ona görə də mövcud, xüsusilə də inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, liberal iqtisadiyyat inkişafın, eləcə də iqtisadiyyatın böyüməsinin əsas şərtlərindəndir.




Bu gün inkişaf etmiş, mərkəzləşmiş idarə sisteminə malik olmuş ölkələrdə belə liberal iqtisadiyyatın formalaşdırılması həyata keçirilir. Bu da ondan xəbər verir ki, liberal iqtisadiyyat iqtisadi inkişaf, eləcə də inklüziv dayanıqlı inkişafın əldə edilməsi baxımından əsas vasitələrdən biridir".

İqtisadçı əlavə edib ki, Azərbaycanda liberal və ya azad iqtisadiyyata keçid mərhələli şəkildə həyata keçirilir: "2022-2026-cı illəri əhatə edən strategiyada da bu istiqamətlərdə fəaliyyətlərin genişləndirilməsi və özəl sektorun daha yaxından dəstəklənməsi nəzərdə tutulub. Düşünürəm ki, milli prioritetlər çərçivəsində iqtisadiyyatda özəl sektorun payının artmasını müşahidə edəcəyik.

Təbii ki, özəl sektorun iqtisadiyyatda ümumi payı yüksəkdir. Amma məşğulluq məsələsinə diqqət etsək, bu gün əmək müqavilələrinin 60 faizi dövlət sektorunun payına düşür. İqtisadiyyatın liberallaşması məşğulluq məsələsində özəl sektorun payının artmasına gətirib çıxaracaq. Avropa İttifaqında məşğulluğun 62, ümumi daxili məhsulun 64 faizini kiçik və orta sahibkarlar verir. Bunlar da liberal iqtisadiyyatda fəaliyyət göstərən sahibkarlardır. Ona görə də oxşar praktikaların Azərbaycanda daha geniş formada tətbiq edilməsi, liberal iqtisadiyyatın yaxından dəstəklənməsi vacibdir. Yeni strategiyalarla liberal iqtisadiyyatın payının artmasını da görəcəyik".

F.İbrahimov bildirib ki, iqtisadiyyatı inkişaf etdirmək üçün vacib amillərdən biri sahibkarlara əlverişli mühitin yaradılmasıdır: "Əlavə olaraq ölkədə xarici sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsi də iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Müasir zamanda bazar iqtisadiyyatını azad sahibkarlıq fəaliyyəti və liberal iqtisadiyyat olmadan təsəvvür etmək olmaz.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının təminatı özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafından asılıdır. Bu səbəbdən Azərbaycanda sahibkarlığın inkişafı prioritet istiqamətlərdən biri kimi görülür. Ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi istiqamətində uğurlu addımlar, həmçinin bir çox layihələrə imza atılıb. İstənilən ölkədə sosial sahənin inkişafı iqtisadiyyatın və azad sahibkarlığın hansı səviyyədə inkişaf etdiyindən asılıdır".

***Y.SAHİB***

# Vaxta qənaət, şəffaflığa zəmanət...

## Nağdsız ödənişlərin həcmi artıb

2023-cü il ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 48 978 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 39 115 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 9 784 milyon manatı POS-terminallar, 70.7 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşib. Ümumilikdə, ötən il ölkədaxili nağdsız ödənişlərin həcmi əvvəlki illə müqayisədə 2 dəfə, elektron ticarətin həcmi 2.1 dəfə, POS-terminallarla ödənişin həcmi isə 68.6% artıb. Belə ki, 2022-ci ildə kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 24 170.5 milyon manat, elektron ticarətin həcmi 18 333 milyon manat, POS-terminallarla ödənişin həcmi isə 5 801 milyon manat təşkil edib. 2024-cü il yanvar ayının 1-nə banklar və "Azərpoçt" MMC sistemləri üzrə dövriyyədə olan ödəniş kartlarının sayı əvvəlki illə müqayisədə 24.2% artaraq 16 milyon 925 min ədəd təşkil edib.

Nağdsız ödənişlərin miqyasının artmasına bir neçə fundamental amil təsir göstərib. Birincisi, dövlətin hüquqi-iqtisadi təminatları yaratması, qanunvericilikdə nağdsız ödənişlərin dövriyyəsinin artırılmasını təşviq edən motivasiyaedici vasitələrə geniş yer verməsi mühüm rol oynayıb. Belə ki, Vergi Məcəlləsinə, "Nağdsız Hesablaşmalar haqqında" Qanuna dəyişikliklər. "Rəqəmsal ödənişlərin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi və digər qanunvericilik aktlarına müvafiq dəyişikliklər edilməsi elektron ödənişlərin dövriyyəsini böyüdüb. 2022-2023-cü illərdə əqəmsal ödənişlər arxitekturasının daha da genişləndirilməsi, "Nağdsız hesablaşmalar haqqında" qanuna yeni dəyişikliklərin qüvvəyə minməsi də bütün sektorlarda yığımların nağdsızlaşmasına stimul verib.



İkinci amil hökumətin nağdsız ödənişlərin rahat və asan aparılması üçün zəruri infrastrukturlar yaratmasıdır. Hökumət Ödənişləri Portalı, banklar tərəfindən təmin edilmiş elektron ödəmə vasitələrinin istifadəyə verilməsi, internet üzərindən qeyri-nağd kanalların tətbiqinin genişlənməsi kommunal xərclərdən tutmuş, ticarət və digər bütün əməliyyatların nağdsız qatdada aparılmasını təmin edib. Eləcə də, çoxfunksiyalı "ASAN ödəniş" sistemi cərimə, kommunal xidmət və digər ödənişləri qısa zamanda, təhlükəsiz və rahat şəkildə həyata keçirmək imkanı yaradır. Həmçinin ölkə daxilində geniş ərazini əhatə edən "ASAN ödəniş" terminalları, nağdsız ödəmə vasitələri e-ödənişlərin maneəsiz həyata keçirilməsini təmin edir.

Üçüncü amil, hökumətin təşviqedici və ya motivasiya xarakterli layihələridir. Bu istiqamətdə ən uğurlu layihələrdən biri kimi "ƏDV geri al" təşviqini xüsusi qeyd etmək lazımdır. Ən böyük innovativ "ƏDV geri al" layihəsi çərçivəsində 1 milyarddan çox kassa çeki üzrə istehlakçılara yarım milyard manatdan artıq vəsait qaytarılıb. Bu isə sözsüz ki, iqtisadiyyatın "ağardılması"na, eyni zamanda, nizam-intizamın, vergi mədəniyyətinin formalaşmasına xidmət edir. Nəticədə bu təşviqedici kampaniya başlıca məqsəd olan nağdsız dövriyyələrin böyüməsində də əhəmiyyətli rol oyamaqdadır.

Maraqldır ki, nağdsız dövriyyələrin böyüməsində mobil təbiq də xüsusi əhəmiyyət daşıyır və hazırda POS-terminallar vasitəsilə həyata keçirilən hər 4 nağdsız ödənişdən 1-i məhz "ApplePay" və ya "GooglePay" həlli vasitəsilə icra olunur. Məsələn, ötən il istifadəçilər tərəfindən "ApplePay" həlli vasitəsilə ümumi həcmi 1,9 milyard manat ekvivalentində olan 67,5 milyon ödəniş, "GooglePay" həlli vasitəsilə isə ümumi həcmi 813,2 milyon manat ekvivalentində 39,6 milyon ödəniş həyata keçirilib ki, bu da son 5 ildə 10 dəfəyə yaxın böyümə deməkdir.

Başqa bir amil isə ticarət və xidmət sektoirlarında yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) quraşdırılmasıdır. Son 4 ildə bu cihazlraın quraşdırılması vergi ödənişlərinin qeyri-nağd qaydada həyata keçirilməsində və şəffaflığın təmin edilməsində mühüm rol oynayıb və illər üzrə nağdsız dövriyyə böyüyüb. Hazırda ölkə üzrə ticarət, xidmət və işaə sektorunda sayı 100 minə çatıb.

Nağdsız ödənişlərin artması iqtisadiyya üçün hansı müsbət nəticələrə səbəb olub? Nağdsız hesablaşmaların iqtisadi dövriyyədə xüsusi çəkisinin artması biznes əməliyyatlarının şəffaflaşmasını və dövlət gəlirlərinin artmasını şərtləndirir ki, bu da nəticə etibarilə büdcənin maliyyə imkanlarını artırır. Məhz qeyri-nağd ödəmələrin stimullaşdırılması sayəsində qeyri-neft-qaz sektorundan daxilolmalar da yüksəlib və 6,5 milyard manata yaxınlaşıb.

Nağdsız və ya elektron ödənişlərin vətəndaşlar üçün faydasına gəldikdə, bu layihələr əhaliyə vaxta qənaət imkanı yaradır, nağd pul daşınmasının yaratdığı təhlükələrdən qoruyur, ticarət və xidmət obyeklərinə də saxta pullarla hesablaşmaların qarşısını alır. Eyni zamanda, vətəndaşların dövlət qurumlarına ödədiyi müxtəlif xidmət haqlarının hesabatlılığını təmin edir, şəffaflığa zəmanət verir.

Ümumilikdə, dövlətin genişşaxəli nağdsız iqtisadiyyat və rəqəmsal cəmiyyət quruculuğu istiqamətində atdığı addımlar öz töhfəsini verməklə, iqtisadiyyatın şəffaflaşması və qeyri-neft yığımlarının həcminin böyüməsi baxımından hədəf prioritetlərə çatmağa nail olunduğunu göstərir.

***Elbrus CƏFƏRLİ***

# Çin qlobal iqtisadi gücə çevrilir

## Azərbaycanın bir nömrəli tərəfdaşı olan Asiya nəhəngi regionda kommunikasiyaların da açarını ələ keçirir



Dünyanın ən nəhəng iqtisadi qütblərindən biri olan Çinin 2035-ci ilə qədər əsas rəqibi ABŞ-ı geridə qoyaraq dünyanın ən böyük iqtisadiyyatına çevrilməsi ehtimal olunur. Bu barədə Çin Xalq Universitetinin Çonyanq Maliyyə Araşdırmaları İnstitutunun hesabatında deyilir. Sənədə əsasən, qarşıdakı illər ərzində Çinin illik ümumi daxili məhsul (ÜDM) istehsalı 5% artım tempi nümayiş etdirərək 2035-ci ilə qlobal ÜDM-də əsas paya sahib olacaq.

Qeyd edək ki, 2023-cü ilin sonunda Çində ÜDM-in artımı 5,2% təşkil edərək 126 trilyon yuan və 17,7 trilyon dollar həcminə olub. ABŞ-ın ÜDM-i isə 2,5% artaraq 26,39 trilyon dollar təşkil edib. Ümumilikdə son illər iqtisadi artım dinamikasına əsasən, Çin Hindistan, Kanada, Rusiya və ABŞ-ı daha sürətlə keçərək əlavə dəyərin yaradılmasına ön planda yer alması müşahidə edilir. Hazırda qlobal ÜDM-in yaranmasında iki əsas güc mərkəzi mövcuddur, onlardan ABŞ təxminən qlobal ÜDM-in 30 faizinə, Çin isə 20 faizə sahib olmaqla birlikdə dünya iqtisadiyyatının yarısını formalaşdırır.

**Çinin iqtisadi artım tempinin dünya iqtisadiyyatının lokomotivi olan ABŞ-ı ötməsi qlobal iqtisadiyyat üçün nə vəd edir?**

İlk növbədə onu qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə ÜDM-in 3-4 faizdən çox artmaması, əvəzində Asiya nəhənginin əlavə dəyər yaranmasında dayanıqlı mövqe sərgiləməsi gələcəkdə Çinin qlobal iqtisadi artımın əsas mühərriki olmasını möhkəmləndirmiş olur. Çin iqtisadiyyatın bütün sahələri ilə yanaşı, texnoloji inkişafın flaqmanı kimi diqqəti cəlb edir. İnnovasiya və texnologiyalar, rəqəmsal ödəniş arxitekturası, blokçeyn texnologiyaları və digər sferalarda dünyanın ən qabaqcıl ölkələrindən biridir və əksər ölkələr məhz bu texnokrat təşəbbüslərdən faydalanır. Bir sözlə, Çin "iqtisadi möcüzəsi" anlayışı qlobal trend kimi gerçəkləşir.

İkincisi, Çinin dünya iqtisadiyyatında hökmran mövqe qazanması qlobal maliyyə bazarlarında da dəyişikliyə, xüsusilə də valyuta sistemində və qlobal ödənişlərdə mütənasibliyi poza bilər. Dünyada əsas pul vahidi olan dolların beynəlxalq ödəniş vasitəsi kimi rolunun azalmasına, Çin yuanının isə beynəlxalq ödəniş arxitekturasında möhkəmlənməsinə səbəb ola bilər.

Çin Yeni İpək Yolunun müəllifi kimi qlobal tranzit coğrafiyalarında üstün paya sahib olmaqla ticarət əməliyyatlarında da payını artırmaqda qərarlıdır və buna doğru addımlayır.

Çinin dünya iqtisadiyyatında iqtisadi liderə çevrilməsi Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyır. Hazırda bu Asiya ölkəsi ilə Azərbaycan arasında iqtisadi-ticari, investisiya, nəqliyyat-kommunikasiya və s. sahələrdə münasibətlərin hərarəti durmadan artır. İki ölkə arasında qarşılıqlı iqtisadi anlaşmaların artması davamlı şəkildə mal və sərmayə dövriyyələrinin həcminin də yüksəlməsinə səbəb olub, iqtisadi əlaqələr 2010-cu ildən sonra ən yüksək səviyyəyə çatıb. 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dolları ötüb. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə 1 milyard 300 milyon dollar, 2018-ci ildə 1 milyard 310 milyon dollar, 2019 və 2020-ci illrdə 2,1 milyard dollar olub.

2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 2,2 milyard dollar, 2023-cü ildə isə 3,1 milyard dollar təşkil edib. Son 9 ildə mal mübadiləsi 6 dəfə yüksəlib. Yəni, Çin Azərbaycanın əsas ticarət partnyorlarından birinə çevrilib.

Hazırda Çin Azərbaycanın 5 böyük ticarət tərəfdaşından biridir, 4-cü yerdə qərarlaşır. İdxalda isə 3-cü yeri tutur. Çin həm də ölkəmizdə potensial investorlardan hesab edilir. İndiyə qədər 1,5 milyard dollara qədər sərmayə yatırılıb. Öz növbəsində, Azərbaycan bu Asiya-Sakit region ölkəsinə çoxhəcmli investisiya qoyuluşlarında xüsusi paya malikdir, investisiyaların həcmi 1,7 milyard dolları ötməkdədir.

Çin şirkətləri ölkəmizin neft, sənaye, energetika, maliyyə, bank, rabitə, İKT, kənd təsərrüfatı və qeyri-neft sektorunun müxtəlif sahələrində təmsil olunur və hazırda onların sayı 120-yə yaxındır. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza prosedurunu da tətbiq edir. Azərbaycan Şərq və Qərb arasında, ənənəvi İpək yolu coğrafiyasında yerləşir və bu strateji mövqe ölkəmiz üçün çoxlu imkanlar yaradır. Azərbaycan Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub 2015-ci ildə Azərbaycan və Çin arasında "İpək Yolu İqtisadi Kəməri"nin reallaşdırılmasına dair Anlaşma Memorandumu imzalanıb. Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb və Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizləri ailəsinin fəal üzvü olan Azərbaycan "Bir kəmər, bir yol" layihəsinə qoşulduqdan sonra öz nəqliyyat infrastrukturunu tam yeniləşdirib və Orta Dəhliz quruculuğunda çox vacib rol oynayan Azərbaycan Bakı-Tbilisi-Qars və digər nəhəng nəqliyyat-logistika qovşaqlarını istifadəyə hazırlamaqla "İpək Yolu İqtisadi Kəməri" konsepsiyasının bütün hədəflərini gerçəkləşdirməyə nail olub.

Hesablamalara görə, "Bir kəmər, bir yol" layihəsi tam işə düşdükdən sonra hazırda il ərzində Xəzər dənizi vasitəsilə 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü 25-30 milyon tona qədər artırılacaq. Bu dəhlizin ən strateji xətlərindən biri Naxçıvan ilə quru əlaqələrin bərpası və Naxçıvanın Xəzər- Aralıq dənizini birləşdirən körpüyə çevrilməsidir. Naxçıvanla kommunikasiya sisteminin qurulması İpək yolunun məsafə və yüklərin çatdırılma sürəti baxımından əhəmiyyəti daha üstündür. Naxçıvan yolu Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin uzunluğundan 1,7 dəfə, təxminən 343 kilometr az olmaqla daşınmaların xərcini və müddətini azaldır və Mərkəzi Asiya və Avropa arasında ən rentabelli körpü rolunu oynaya bilər.

Beləliklə, Çinin qlobal iqtisadi gücə çevrilməsi Azərbaycan-Çin iqtisadi əlaqələrinin inkişafı fonunda ölkəmizin də iqtisadi-ticari imkanlarının artması baxımından nikbin perspektiv vəd edir.

***Elbrus CƏFƏRLİ***

# BMT-nin 19-cu İqlim Dəyişikliyi Konfransı

## COP19 harada keçirilib?




Birləşmiş Millətlər Təşkilatının 19-cu İqlim Dəyişikliyi Konfransı 2013-cü il 11-23 noyabr tarixlərində Polşanın paytaxtı Varşavada keçirilib. Bu, 1992-ci il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflərin Konfransının (COP19) 19-cu illik sessiyası və Tərəflərin 1997-ci il Kioto Protokolu Görüşünün (CMP 9) 9-cu illik sessiyası idi.

Konfrans nümayəndələri bu toplantılarda qlobal iqlim sazişi istiqamətində danışıqları davam etdiriblər. Danışıqlara UNFCCC-nin icraçı katibi Kristiana Fiqeres və Polşanın ətraf mühit naziri Marçin Koroleç rəhbərlik edib. Konfrans bütün dövlətləri tullantıları azaltmağa mümkün qədər tez - 2015-ci ilin birinci rübünə qədər başlaması barədə razılığa gətirib çıxardı. Nəzərdə tutulan "milli miqyasda müəyyən edilmiş töhfələr" termini Sinqapurun təklifi ilə Varşavada təqdim edilib. Həmçinin Varşava Beynəlxalq Mexanizmi də burada irəli sürülüb.

Konfransa Polşanın ev sahibliyi etməyi hər kəs tərəfindən alqışla qarşılanmayıb. Çünki 2013-cü ilə olan məlumata görə, Polşanın elektrik enerjisinin 88%-i kömürdən, dünya üzrə orta enerjinin 68%-i isə qalıq yanacaqlardan əldə edilir. Ölkə rəsmiləri qlobal istiləşməyə qarşı daha effektiv hərəkət etmək üçün Aİ-nin təkliflərini əngəlləyiblər. Digər Aİ-yə üzv dövlətlərə qarşı təkbaşına mövqe sərgiləyən Polşa 2011-ci ildə 2050-ci il üçün təklif olunan emissiya hədəflərinin qarşısını alıb. Eyni zamanda ətraf mühit naziri Marçin Koroleç (konfransın sədri) Aİ-nin nümunəvi strategiyasına şübhə ilə yanaşdığını bəyan edib.

189 ölkədən 10 mindən çox iştirakçı konfransda iştirak etmək üçün qeydiyyatdan keçsə də, yalnız 134 nazir iştirak edəcəyini açıqlayıb. Konfransda İqlim dəyişikliyinə ən həssas olan dörd ölkə öz prezidentləri və ya baş nazirləri ilə təmsil olunurdu: Tuvalu, Nauru, Efiopiya və Tanzaniya. Toplantılarda Polşanın baş naziri Donald Tusk ölkədə "şist qazı fəaliyyətinin köklü surətdə sürətləndirilməsini" daha yaxşı təmin edə bilən siyasətçiyə üstünlük verərək Koroleçi vəzifəsindən azad edib. Bununla belə, Tusk bildirib ki, Korolec hökumətin şist qazı üzrə səlahiyyətli nümayəndəsi olaraq qalacaq.

COP19 təşkilatçıları konfrans ərəfəsində onlayn bloqda Arktika buzlarının əriməsinin ehtimal edilən üstünlükləri ilə bağlı şərhlər də edib. Bildiriblər ki, yeni qazma platformaları tikə və dənizin dibində gizlənmiş təbii sərvətləri çıxara bilərlər. Ancaq onların bu fikri birmənalı qarşılanmadığından qəbul edilməyib.

Polşadakı İqtisadiyyat Nazirliyinin təşkilatçıları da UNFCCC danışıqları ilə yanaşı, Ümumdünya Kömür Assosiasiyası ilə birgə tədbirə ev sahibliyi etdiklərinə görə sərt tənqid olunublar. Bu vəziyyət Polşada enerji mənbələri qarışığının dəyişdirilməsinə qarşı təxribat kimi qiymətləndirilib. Danışıqlar zamanı konfransın sədri Marcin Korolecin ətraf mühit naziri vəzifəsindən kənarlaşdırılması Polşanın qlobal istiləşmə ilə bağlı qlobal tədbirləri irəlilətmək öhdəliyinin olmamasının başqa bir əlaməti kimi qiymətləndirilib. Baş nazir Donald Tusk bildirib ki, işdən çıxarılma "şist qazı əməliyyatlarını köklü surətdə sürətləndirmək" zərurəti ilə bağlıdır. Konfransda bildirilib ki, Beynəlxalq Enerji Agentliyi davamlı olaraq sənayeləşmiş ölkələri qalıq yanacaq subsidiyalarını azaltmağa çağırır. Ancaq bu subsidiya tədbirlərinin nəzərə alınmayacağı gözlənilir.

COP19-da iştirak edən bəzi ölkələr çirklənmə ilə bağlı bəyan edilmiş hədəflər üzrə zəif performanslarına görə tənqid edildi. Amerika Birləşmiş Ştatları CO2 emissiyalarını 2005-ci illə müqayisədə 2012-ci ildə 11,8 faiz azaltsa da, digərləri eyni nəticə göstərməyi bacarmamışdı.

***Günel ABBAS***

# Fransa köhnə hərbi texnikasını Ukraynada "utilizasiya" edəcək?

Fransa Ukraynaya yeni yardım paketi çərçivəsində yüzlərlə köhnə, lakin "hələ də işlək" VAB zirehli texnikasını, eləcə də SAMP/T hava hücumundan müdafiə raketlərini təhvil verməyi planlaşdırır. Bu barədə Fransanın müdafiə naziri Sebastyan Lekornü yerli "La Tribune" qəzetinə müsahibəsində deyib. Bu cür zirehli maşınlar cəbhə xəttini saxlamaq və Ukrayna qoşunlarının hərəkətliliyi üçün lazımdır. Lekornu deyib ki, bunlar, hələ də işlək vəziyyətdə olan köhnə avadanlıq sayılır və böyük miqdarda ötürülsə, birbaşa Ukrayna üçün faydalı olacaq. Fransa ordusunda 40 ildən çox yaşı olan VAB zirehli transportyorları demək olar ki, hazırda hərbi sənaye gündəliyində yer almır. Əvəzində neçə ildir ki, Fransa bu texnikanın yeni nəsli olan "Qriffon" zirehli maşınlarla əvəz olunur. Həmçinin Ukraynanın hava hücumundan müdafiəni gücləndirmək tələbinə cavab olaraq, Fransa "Aster 30" raketləri "SAMP/T" zenit-raket sistemlərinə keçirəcək ki, bu artilleriya sistemləri də əvvəlki nəsil parka aiddir.

Fransanın bu hərbi "səxavəti" əslində özünün hərbi texnika parkını müasirləşdimək və köhnə hərbi sənayenin tələbatlarına cavab verməyən arsenalını təmizləmək, utilazasiyalaşdırmaqdır. Belə hallar Fransa üçün son illər ənənəyə çevrilib və Mərkəzi-Şərqi Asiya və Afrika ölkələrindəki müstəmləkələrində "silahyuma əməliyyatı" geniş yer alıb. Ötən ilin sonlarında Ermənistana təhvil verilmiş "ACMAT Bastion" zirehli maşınları da bu plan çərçivəsində gerçəkləşib. Həmin zirehli maşınlar əvvəlcə Ukraynaya tədarük edilməsi üçün nəzərdə tutulsa da, rəsmi Kiyevin təkidi sayəsində hərbi texnika ixracı dayandırılmışdı. Hətta Ukrayna hökuməti Parisin bu addımını təəccüblə qarşılayaraq zirehli maşınların artilleriya və tank əleyhinə raketlərə qarşı zəif olması ilə səciyyələndirmiş, belə aldadıcı hərbi yardıma görə, narazılığını gizlətməmişdi.





Makron hökuməti Ermənistana və digər ölkələrə üçüncü, dördüncü nəsil işə yaramayan texnika tədarükünü həyata keçirilməklə həm hərbi sənayesini yeniləyir, həm də silah ixracından qazanc götürməyə çalışır. Fransanın son illərdə Afrika, Asiya və digər bölgələrə silah ixracında liderliyə yüksəlməsi də onun köhnə hərbi maşınlar üzərindən manipulyasiya və alver etməsinə dəlalət edir. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) dərc etdiyi beynəlxalq silah transferləri ilə bağlı hesabatda deyilir ki, Fransanın silah ixracı 2019-2023-cü illər arasında 47 faiz artıb və ilk dəfə bu ölkə Rusiyanı qabaqlayaraq ikinci ən böyük silah ixracatçısı olub. Fransanın silah ixracının ən böyük payı (42 faiz) Asiya və Okeaniya dövlətlərinə, digər 34 faizi isə Yaxın Şərq ölkələrinə gedib. Fransanın silah ixracının ən böyük tək alıcısı Hindistan olub ki, bu da təxminən 30 faiz təşkil edib. Fransanın silah ixracındakı artım əsasən Hindistan, Qətər və Misirə döyüş təyyarələrinin tədarükü ilə bağlı olub. Bu ölkələrdə müharibə olmadığından silahların hansı effektə malik olması hələlik qaranlıq qalır.

Fakt odur ki, E.Makron Ukraynaya yardım üçün müxtəlif vasitələrindən istifadə etməkdən çəkinmir, 2 ildir davam edən müharibədə Fransa Ukraynaya normal yardım etmədiyindən "borcundan" yararsız zirehli maşınlarla çıxmaq istəyir. Yəni, onun Ukraynaya münasibəti və "səmimiyyəti" 3-cü, 4-cü növ silahlarını satmaq və şəxsi biznesini artırmaqdan ibarətdir. Bu azmış kimi Makron Moldovada missiya yaratmaq, bu ərazidə də silah tədarüklərini gerçəkləşdirmək niyyətini gizlətməyib.

Bütün bunlara baxmayaraq, Fransa prezidentinin mövcud ritorikası əslində "yardım və yaxşılıq" etmək istədiyi ölkələrə ancaq zərər gətirməklə müşayiət olunur. Məsələn, Makronun Ermənistanda missiya yaratması, Fransa şirkətlərinin lisenziyası əsasında Hindistan tərəfindən istehsal olunan silahları satması həmin ölkəni daha da pis vəziyyətlə və geosiyasi təhdidlərlə üzləşdirib.

Görünür, Makron üçün hərbi yardım, silah dəstəyi kimi planlaşdırılan addımlar həqiqi kampaniya xarakteri daşıyır, biznes üçün münbit zonaya çevirir. Qazanan Fransa olsa da, Ukrayna itirir.

*E.Cəfərli*

# Qərbin "emissarları"...

## Redikül müxalifət yenidən milli maraqlara qarşı cəbhə alıb

Son 4 ildə mühüm qələbələrə imza atmış Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini təmin edib. Bu prosesdə əsaslı rol oynayan xalq - hakimiyyət - ordu birliyi qələbənin əsas formuluna çevrildi. Eyni zamanda, bütün kritik məqamlarda siyasi palitranın bir məqsəd ətrafında birləşməsi milli həmrəyliyin təcəssümü kimi çıxış etdi. İstər 2020-ci il Vətən müharibəsi, istərsə də lokal antiterror tədbirləri zamanı Azərbaycanın siyasi-ictimai palitrası müqəddəs amalımız uğrunda birlik nümayiş etdirdi. Amma bu imtahandan kəsilənlər də oldu - ictimai qınağa tuş gəlməmək, "susmaq" komuflyajı ilə pərdələnərək özünü qorumaq üçün həmin günlərdə gözdən "itənlər" sonradan erməni marağının, erməni təbliğatının danışan dilinə çevrildi. Redikül müxalifətin Azərbaycan "ayaq"ları, xaricdə məskunlaşdırılmış "siyasi alətləri" ötən 4 ildə bir dəfə də olsun ölkəmizin milli maraqlarının qorunması prosesində iştirak etməyib - tam əksinə, xarici maliyyə qaynaqlarının, xüsusilə ABŞ və Fransanın verdiyi tezislər üzərindən ölkəmizə qarşı hədyanlar söyləyiblər.

Hazırda Qərbin təhriki və dəstəyi ilə Ermənistan yenidən bölgədə təhdidlər formalaşdırmağa çalışır. ABŞ və Aİ-nin Cənubi Qafqaza yönəlik çirkin planları bütövlükdə regionun, eləcə də Azərbaycanın mövqeyinə ziddir. Bu gün Azərbaycanın ictimai-siyasi sektorunun təmsilçiləri yaranan təhdidlərə qarşı açıq mövqe nümayiş etdirirlər. Redikül müxalifət isə...

Konkret məsələyə keçməzdən öncə, vurğulamaq yerinə düşər ki, redikül müxalifət qüvvələrinin yaranan situasiya ilə bağlı mövqeyinə aydınlıq gətirmək üçün onların sosial media seqmentindəki çıxışlarına diqqət yetirmək vacibdir - heç bir sosial elektoratı olmayan rediküllər özlərinin "məram və məqsədlərini" məhz sosial media üzərindən "təbliğ edirlər". Bu mənada, AXCP, "Milli şura", "Müsavat" kimi milli maraqlara düşmən kəsilənlər yaranan vəziyyətlə bağlı maraqlı "tendensiyalarla" seçilir.

Məsələn, bu məsələdə daha "aktiv" rolu AXCP öz üzərinə götürüb - Fransada yerləşdirilmiş "casus"ları ilə əlbir olan Əli Kərimli "Qərbi qorumaq" üçün hərəkətə keçib. Artıq bir müddət idi ki, Azərbaycan dövlətini "Qərblə münasibətləri pozmaqda günahlandıran" AXCP sədrinin iç üzü növbəti dəfə ortaya çıxdı - Fransada oturub erməni maraqlarını qoruyan Qənimət Zahidin "televiziyasında" Qərbi ciddi cəhdlə müdafiə edən Kərimli paradoksal fikirlərlə gündəmə gəlməyə çalışır. Bu şəxs baş verənlər və ya baş verməsi proqnozlaşdırılanlarla bağlı Qərbdə "günah" görmür. Halbuki, regiona təsir gücünü formalaşdırmaq üçün Cənubi Qafqazı yenidən müharibə poliqonuna çevirmək uğrunda mübarizə aparan ABŞ-Aİ cütlüyü bunu açıq şəkildə ortaya qoyurlar. Kərimli və onun Fransadakı "kassası" Qənimət Zahid isə məsələni başqa rakursdan təqdim etməyə çalışır.

Digər redikül təmsilçilər isə daha çox hələlik susmağa üstünlük verir - Azərbaycanın maraqlarını qorumağı özü üçün vəzifə saymayan qondarma şuraçılar, "Müsavat" üzvləri Qərbin Ermənistan üzərindən yaratdığı təhdidlə bağlı susqunluq nümayiş etdirirlər. Susmaq isə razılaşmaq əlamətidir - demək ki, bu qüvvələr də özlərinin "maliyyə mənbələri"nin fəaliyyətinin gizli dəstəkçiləridirlər...

*MƏNSUR*

**Üçüncü dünya müharibəsinin yaxınlaşdığı barədə qorxunc proqnozların verildiyi bir vaxtda Qərb dövlətləri Ukraynaya canlı hərbi qüvvə göndərmək planını intensiv müzakirə edir. İddialara görə, bu müzakirələr daha çox mediaya qapalı formada keçirilir. Rusiyalı ekspertlərin fikrincə, Makronun məşhur açıqlamasına təpki göstərən Aİ ölkələrinin liderləri əslində bu variant üzərində götür-qoy edirlər.**

# Avropanın planı dəyişir...

## Ukraynaya qoşun yeridiləcək?

### Ukraynada NATO kontingenti var, amma...

NATO hərbçilərinin Ukrayna döyüş bölgələrində mövcudluğu barədə məlumatlar əvvəllər də xəbər gündəminə gəlmişdi. Hətta bir sıra ölkələrin rəsmi dairələri bu informasiyaların həqiqətə uyğunluğu barədə ehtimallar da səsləndirmişdi. Məsələn, Polşa xarici işlər naziri Radoslav Sıkorskinin Ukraynadakı NATO əsgərləri ilə bağlı bəyanatını xatırlamaq kifayətdir. Bu yaxınlarda İspaniya mətbuatı məlumat yayıb ki, NATO ordusu guya hərbi əməliyyatlarda iştirak etmir, lakin alyans Ukraynaya verilən silahları nəzarətə götürməyə, kəşfiyyat və təlim əməliyyatları keçirmək üçün ölkəyə məhdud sayda kontingent göndərməyə nail olub. Fransa prezidenti Emmanuel Makronun qaldırdığı məsələ isə konkret olaraq Ukraynaya tamhüquqlu silahlı qüvvələrin göndərilməsini nəzərdə tutur. Bu təklif son vaxtlara qədər absurd və reallıqdan uzaq görünürdüsə, artıq bir sıra analitiklər situasiyanın dəyişdiyini iddia edirlər.

Bu bir faktdır ki, müharibənin ilk günlərindən Qərb liderləri Rusiya ilə birbaşa hərbi toqquşmadan qaçmağın vacibliyini yekdilliklə bəyan edirdilər.

Lakin Ukrayna vasitəsilə Moskvanı strateji məğlubiyyətə uğratmaq planlarının puça çıxması, Rusiyaya tətbiq etdiyi sanksiyalardan dolayısı ilə özünün də zərər görməsi Qərbi bu istiqamətdə taktiki dəyişikliyə sövq edir.

Artıq Makronun simasında Qərb liderləri üçüncü dünya müharibəsinin reallaşmasından danışırlar. Belə ciddi proqnozun qeyri-ciddi imicə malik biri tərəfindən səsləndirilməsi ilk baxışdan diqqətəlayiq görünməsə də, bəzi analitiklərin fikrincə, bu perspektivi gerçəklikdən kənar da hesab etmək olmaz.

Rusiya mediası Qərbin bu məsələdə görünməmiş avantüraya başladığını iddia edir. Rusiyalı siyasətçilərin bu mövzuda fikri yekdildir: "Qərb Rusiyanı böyük güclər klubundan kənarlaşdırmaq, parçalamaq və yox etmək məqsədi güdür".

Son dönəmlər Aİ daxilində böhranın danışıqlar yolu ilə həllində israrlı olan Macarıstan baş naziri Viktor Orban və Slovakiyanın baş naziri Robert Fiko kimi praqmatik liderlərin mövqeyi daha çox populyarlıq qazanıb.

### Aİ daxilində ikiləşmə

Buna baxmayaraq Vaşinqtonun göstərişləri əsasında barışıqdan və danışıqdan imtina edən "anti-Rusiya" layihəsinin təşəbbüskarları eskalasiya üçün müxtəlif alternativ variantlar təklif edirlər. Rusiyalı ekspertlər bildirirlər ki, əgər öncələr avropalı rusofobların sevimli ideyası Rusiyanın Qərbdəki aktivlərini müsadirə etmək və onları Ukraynaya yardım əvəzi yönləndirmək idisə, hazırda həmin qüvvələr Makronun simasında Rusiya əleyhinə yönələn istənilən fəaliyyətə həvəslə şərik çıxırlar.

Təbii ki, nüvə toqquşmasına birbaşa yol sayıla biləcək NATO Nizamnaməsinin 5-ci maddəsinin aktivləşdirilməsi perspektivi bir çox ayıq düşüncəli Qərb siyasətçilərinin xoşuna gəlmir.

Makronun Ukraynaya qoşun yeritmək həvəsini bölüşməyən Olaf Şolz Almaniyanın ən qeyri-populyar kansleri olaraq qalır. Ukrayna cəbhəsinə avropalı hərbçilərin göndərilməsi barədə söhbətlərdən yayınan NATO baş katibi Yens Stoltenberq isə yaxınlarda pensiyaya çıxmağa hazırlaşır.

Nəticədə, Emmanuel Makron Polşanın və Skandinaviya ölkələrinin dəstəyi, eləcə də Böyük Britaniyanın razılığı ilə öz dağıdıcı təşəbbüslərini həyata keçirmək üçün bir növ kartblanş qazanır. Bu arada Serbiya Prezidenti Aleksandr Vuçiç qurbanlarının sayına görə ikinci dünya müharibəsini geridə qoya biləcək yeni qlobal savaşın yaxınlaşmasından narahatlığını dilə gətirib.



### Rusiya nə təklif edir?

Rusiyalı ekspertlər isə bildirirlər ki, Avropa qitəsinin (nə qədər iddialı səslənsə də) bu cür düşünülməmiş hərəkətlərlə məhvə doğru getməsini, ümumilikdə dünya sivilizasiyasının risk altına atılmasını Makrona və Makron kimilərinə əməlli-başlı izah etmək gərəkdir.

Məsələn, Makron Fransasının Ermənistanı himayəyə götürmək adıyla Cənubi Qafqaza yersiz burun soxması normal ermənilər tərəfindən etibarlı bir jest kimi qarşılanmır. Makronun Qafqaz canfəşanlığı ilə bağlı "VEREQ" Analitik Mərkəzinin politoloqu Beniamin Matevosyan belə söyləyib: "Onlar Ermənistana nə təklif edə bilərlər? Vəziyyəti Ukraynada baş verənlərlə müqayisə etsək, Ermənistana bəzi boş kağız parçaları təklif oluna bilər. Məsələn, Ermənistan üçün təhlükəsizlik zəmanətinin imzalanması. Ona qalsa, Ukrayna da Böyük Britaniya, İtaliya və digər ölkələrlə belə sənəd imzalayıb. Hakimiyyətdəkilər çox şey deyə bilərlər, ancaq hərbi loqistika baxımından Ermənistanın təhlükəsizliyini təmin edə bilməyəcəklər. Amerikanın bir sıra mötəbər təşkilatları bizə deyir ki, KTMT-dən çıxmaq yox, təhlükəsizlik sistemini şaxələndirməyə çalışmaq lazımdır. Hətta rəsmi Parisin nümayəndələri də bu yaxınlarda Ermənistan hakimiyyətini Rusiya Federasiyası ilə münasibətləri gərginləşdirməyə yönəlmiş addımlar atmamağa çağırıblar, çünki nə Avropa İttifaqının, nə də NATO-nun Ermənistanın ərazi bütövlüyünü, suverenliyini təmin edəcək vasitələri yoxdur".

Bəs NATO qoşunları Ukraynaya yerləşərsə, nə baş verəcək? Rusiya rəsmiləri bildirirlər ki, Ukrayna ərazisinə gələn və Kiyevə müttəfiq olan istənilən ordunun əsgərləri Rusiya silahlı qüvvələri üçün legitim hədəfə çevriləcək və dərhal məhv ediləcək. Onilliklər ərzində Rusiya və Qərbi qarşılıqlı surətdə məhv olmaqdan sığortalayan nüvə çəkindirmə prinsipi bu məqamda işə yaramayacaq. Tarixə nəzər salsaq, görərik ki, Kuba raket böhranı zamanı ABŞ-ın casus təyyarəsinin SSRİ-nin hava hücumundan müdafiə qüvvələri tərəfindən məhv edilməsi münaqişənin qırmızı xətti keçməsinə səbəb olmadı, əksinə, gərginliyin aradan qaldırılmasına kömək etdi. Ümumiyyətlə, soyuq müharibənin qaydası belədir.

Rusiya opponentlərinin sadə vətəndaşları məsuliyyətsiz liderlərinin hərəkətləri nəticəsində nüvə xarabalıqlarını görmək kimi ciddi sarsıntı keçirməyiblər. Əgər Aİ ölkələri Parisin təklif etdiyi yolla getsə, belə bir sarsıntı mütləq əmələ gələcək.

"Bu, bizim seçimimiz deyil. Biz düşmənlə sona qədər anlaşmağa çalışacağıq. Lakin qlobal münaqişəni dayandırmaq üçün əlavə variant qalmayacaqsa, savaş üçün son imkanlarımızı səfərbər edəcəyik!" Bu fikirlər isə Rusiya KİV-ində Putinin dilindən və onun adından dəfələrlə səsləndirilib.

*Murad Köhnəqala*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı 23-cü günün duası

**"Allahumməğsilni fihi minəz-zunub. Və təhhirni fihi minəl-uyub. Vəmtəhin qəlbi fihi bitəqval-qulub. Ya muqilə əsəratil-muznibin".**

**"İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!".**



# Böyük ədib

## Nəcəf bəy Vəzirovun doğum günüdür

Onun Azərbaycan dramaturgiyasının inkişafında, milli teatrımızın yaradılmasında müstəsna rolu var. Vətənin azadlığı, xalqın maariflənməsi və xoşbəxtliyi onun böyük ideya və arzusu idi. O, istedadının gücünü, bilik və bacarığını ömru boyu bu yolda sərf etməyi özünə səadət hesab edirdi. Ona görə də bu yolda nə təqib, nə həbsxana, nə də Sibir meşələrinə sürgün onu qorxudurdu. Bütün yaradıcılığı boyu xalqın səadəti və rifahı missiyasının daşıyıcısı olması ilə qürur duyurdu. Xalqımız da özünün bu ölməz sənətkarı ilə qürur duyur. Söhbət dahi yazıçı-dramaturq Nəcəf bəy Vəzirovdan gedir.

Bu gün N.Vəzirovun anadan olmasının 170-ci ildönümü tamam olur. Azərbaycanın səfalı guşələrindən biri olan Şuşa şəhərində dünyaya göz açan Nəcəf bəy ilk təhsilini dini məktəbdə aldıqdan sonra, Şuşadakı mülkiyyə məktəbində də bir il oxuyur. 1868-ci ildə isə Şuşadan ayrılıb Bakıya gələrək imtahan verir və real gimnaziyanın ikinci sinifinə daxil olur. O, gimnaziyada öz bacarığı və biliyi ilə müəllimlərin rəğbətini qazanır.

Burada ona dərs demiş böyük mütəfəkkir Həsən bəy Zərdabi ilə tanışlığı N.Vəzirovun inkişafında müstəsna rol oynayır. H.Zərdabi şagirdlərdə təkcə elmə maraq oyatmaqla kifayətlənmirdi. O, çalışırdı ki, şagirdlər xalqın gələcək inkişaf yollarını düzgün anlasınlar, onun azadlığı və maariflənməsi uğrunda mətin mübarizlər kimi yetişsinlər. Məhz Zərdabinin məsləhəti ilə N.Vəzirov təbiət elmlərinə xüsusi maraq göstərir, rus klassik yazıçılarının əsərlərini mütaliə edərək mütərəqqi ideyalarla tanış olur. Yazıçının teatrla tanışlığı da bu zaman başlanır. O, yazır: "1873-cü ildə altıncı sinifdə oxuduğum halda birinci dəfə rus teatrına getdim. Bu gecə mənə nəhayət dərəcədə təsir elədi. Onun necə bir şey olduğunu başa düşdüm".

N.Vəzirov 1874-cü ildə real gimnaziyanı qurtarıb təhsilini davam etdirmək üçün Rusiyaya gedir. Onun Moskvada təhsil aldığı illər Rusiyada azadlıq ideyalarının, zəhmətkeş kütlənin mənafeyini müdafiə edən xalqçılıq hərəkatının genişləndiyi bir dövrə təsadüf edir. Hələ Bakıda real gimnaziyada oxuyarkən H.Zərdabi kimi milli-azadlıq ideyaları ilə tərbiyələnən N.Vəzirov Moskvada daha qaynar bir inqilabi mühitə düşür. O, tezliklə qabaqcıl fikirli gənclərlə dostlaşır, təhsil aldığı akademiyanın daxilində baş verən tələbə çıxışlarında və gizli təşkilatlarında iştirak edir. Hətta 1878-ci ildə H.Zərdabinin təşəbbüsü ilə "İmdadiyyə" adlı dərnək təşkil edir.

N.Vəzirov 1895-ci ildə Bakıya köçür. Burada lazımi imtahanları verib vəkillik vəsiqəsi alır və məhkəmələrdə çalışır. O, burada uzun müddət ayrı düşdüyü bədii yaradıcılığını davam etdirir, "Yağışdan çıxdıq yağmura düşdük", "Müsibəti-Fəxrəddin", "Pəhləvanı-zəmanə" kimi klassik əsərlərini yaradır. N.Vəzirov 1903-cü ildə Bakı Dumasına katib seçilir. Az sonra isə şəhər maarif şöbəsi rəisinin müavini təyin edilir və keçmiş müəllimi Həsən bəy Zərdabi ilə birlikdə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılması işində yaxından iştirak edir.

1905-ci il inqilabı N.Vəzirovun ədəbi-ictimai fəaliyyətinin genişlənməsi üçün münbit zəmin yaradır. Maarifpərvər ədib bir tərəfdən Bakıda çıxan "Həyat", "İrşad", "Təzə həyat", "Açıq söz" və s. qəzetlərində "Dərviş" imzası ilə "Balaca mütəfərrəqələr" başlığı altında burjua-mülkədar cəmiyyətinin ictimai eyiblərini açan felyetonlar yazır, digər tərəfdən dram dərnəklərinə rəhbərlik edir, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərir.

Hər bir xalqın mənəviyyatının aynası həmin xalqın dilidir. N.Vəzirov yaşadığı dövrdə böyüməkdə olan nəslin milli ruhda tərbiyə olması ədibi narahat etdiyindən ana dili məsələsinə həssaslıqla yanaşırdı. Dramaturq dilimizə laqeydliyin səbəbi kimi kişilərin alman, fransız, yəhudi və başqa millətlərdən qız almasını göstərir. Bunun nəticəsində onlar həm övladların başqa adlar qoyurlar, həm də övladları ilə ünsiyyəti öz dilləri ilə qururlar.

N.Vəzirov Azərbaycan xalqının mənəvi diriliyini, ölməzliyini, böyük gələcəyini, milli özünədərkini müəllim kimi onların oxumağında, məktəbə sövq edilməyində görürdü. O, bütün bunları öz tələbələrinə öyrətmiş, daha geniş kütləyə isə əsərləri və teatr vasitəsi ilə xitab etmişdi. Yeniliyi, tərəqqini alqışlayan, savadsızlığı tənqid edən Vəzirovun fəaliyyəti həmişə xatırlanmalı və qeyd edilməlidir.

***Yeganə BAYRAMOVA***

# Uşaqların dünyası...

## Beynəlxalq Uşaq Kitabı Günüdür

Dahilər hər zaman kitabı bilik, zəka, idrak mənbəyi, kamillik zirvəsi hesab ediblər. Bu, səbəbsiz deyil. Çünki insanlar ən yüksək keyfiyyətləri mütaliə etməklə qazanırlar. Kitab oxumaq insanın ruhunu qidalandıran, daxilindəki mənəvi boşluğu dolduran çox əhəmiyyətli bir vasitədir. Böyük şəxsiyyətlərin həyatlarına nəzər yetirdikdə, onların hərtərəfli inkişafında mütaliənin əhəmiyyətli rol oynadığını aydın şəkildə görmək mümkündür.

Uşaq və yeniyetmələrin də mənəvi, intellektual və estetik inkişafında kitabın rolu danılmazdır. Unudulmamalıdır ki, kitablar fikir müharibəsinin silahlarıdır. Oxuyan və oxuduğunu yaxşı dəyərləndirməyi bacaran insan hər zaman öndədir, fərqlidir, mübahisə və müzakirə bacarığı yaxşı olan biridir... Kitablar hər zaman yanımızdadır, ən sadiq dostlarımızdır. Hər hansı bir məlumat öyrənmək istəsək, kitablar köməyimizə çatar, bütün suallarımızı cavablandırarlar.

**Tarixə nəzər...**

Aprelin 2-i Beynəlxalq Uşaq Kitabı Günüdür. Bu tarixin seçilməsini alman yazıçısı Yella Lepman istəyib. 1967-ci ildən başlayaraq Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın təşəbbüsü və qərarıyla 2 aprel bütün dünyada Beynəlxalq Uşaq Günü kimi qeyd olunmağa başlayıb.

Lepmanın bu istiqamətdəki təklifləri bununla kifayətlənmir. O, hələ 1953-cü ildə uşaq ədəbiyyatı üzrə "balaca nobel mükafatının" - Hans Xristian Andersen mükafatının təsis edilməsini də təklif edib. Həmin ildən etibarən məşhur nağılçının adını daşıyan bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə, dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsmi çəkən 17 illüstrasiyaçı - rəssama təqdim olunub. İlk dəfə bu, 1956-cı ildə ingilis nağılçısı Eleanor Fardkona, 1958-ci ildə isə İsveç yazıçısı Astrid Lindqrenə verilib. Sonra bu sırada alman yazıçısı Erix Keçtner, Ceyms Kryuss, italyan Canni Rodarı və başqalarının adı yer alıb. Ancaq təəssüflər olsun ki, Azərbaycana bu mükafat hələ ki, qismət olmayıb. Beynəlxalq aləmdə uşaq kitabı üzrə daha bir mükafat da var: bu, son illər nəşr olunan ayrı-ayrı uşaq kitablarının illüstrasiyasına və onların dünyanın müxtəlif dillərinə tərcüməsinə görə təqdim edilən Fəxri Diplomdur.

Uşaq kitablarının tarixi isə daha qədimdir. Bu tarix 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsindən hesablanır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Y.A.Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədiylə rəsmlərin yer aldığı kitab nəşr etdirib. XVIII əsrdə uşaqlara öz zövqlərinə görə kitab seçmək imkanı yaranmağa başlayır. D.Defo və C.Sviftin "böyüklər" üçün yazılmış "Robinzon Krunzo" (1719) və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olundu. Yazılaraq kitablara köçürülən xalq nağıllarına da maraq artıb. Şərqdə "Min bir gecə", "Ələddin", "Əli-Baba və qırx quldur", "Sindibadın yeddi səyahəti" nağılları da qeyd olunmalıdır. Qrim qardaşlarının nağıllar kitabı bu baxımdan diqqət çəkir. 1846-cı ildən başlayaraq Andersonun qələmə aldığı nağılları da uşaqlar günümüzdə də çox sevirlər. Müəlliflərin və kitabların adını çox sadalamaq olar. XIX əsri uşaq ədəbiyyatının "qızıl əsri" sayanlar da çoxdur.



**Hər şey kimi kitab da ailədən başlayır**

Dünyada belə bir günün təsis edilməsi diqqəti uşaq ədəbiyyatına, kitablara çəkmək məqsədi daşıyır. Kitab oxumaq mədəniyyəti uşaqlıqdan yaranan bir prosesdir. Hələ kişik yaşlarda, məşğul olacaq, başını qatacaq, diqqətini cəlb edəcək şeylərin az olduğu zamanlarda valideyn övladının əlinə kitab verməklə ona bir növ oxu mədəniyyəti aşılayır. Həmin vaxt uşaq hərfləri tanımaya, oxumaq vərdişinə yiyələnməyə bilər. Amma anasının, atasının verdiyi o kitab öncə vərəqləri, şəkilləri ilə diqqətini cəlb edəcək. Pedaqoqlar bildirirlər ki, əvvəllər uşaq üçün kitab bir oyuncaqdır. O, sadəcə kitabın səhifələrini vərəqləməkdən xoşlanır. 2 yaşından etibarən uşaq rəsmlərdən ibarət olan, bez, yaxud qalın kartondan düzəldilmiş, əlində tuta biləcəyi kiçik kitabları sevir. 3-4 yaşlı uşaqlar onlara rəsmli nağıl kitablarının oxunmasını istəyirlər.

***Yeganə BAYRAMOVA***

# Azercell gənclərin informasiya texnologiyaları sahəsində inkişafını dəstəkləməyə davam edir

## İnformatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşan şagirdlərin "Novruz kamp"ı təşkil olunub

23-26.03.2024-cü il tarixlərində Şəmkir rayon, Kimya-biologiya təmayüllü liseydə informatika fənnindən beynəlxalq olimpiadalara intensiv hazırlıq məşğələləri təşkil edilib. İntensiv kamp müddətində şagirdlər hər gün beynəlxalq olimpiada formatında yarışlara qoşulub, tapşırıqların izahı sessiyalarında iştirak ediblər. Kamp olimpiadalara hazırlıq komandalarının təlimçiləri, həmçinin öncəki illərdə ölkəmizi müxtəlif müsabiqələrdə uğurla təmsil etmiş məzunların iştirakı ilə keçib.

İnformatika fənni üzrə olimpiadalara hazırlıq prosesi Azercell-in dəstəyi ilə həyata keçirilir. "Azercell Telekom" MMC-nin Elm və Təhsil Nazirliyi ilə tərəfdaşlığı müddətində məktəblilərimiz müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə ölkəmizi uğurla təmsil edərək 4 qızıl, 16 gümüş və 40 bürünc olmaqla ümumilikdə 60 medal əldə ediblər.

## *İdman*

### Azərbaycanın üç paracüdoçusu lisenziya turnirində iştirak edəcək



Azərbaycanın üç paracüdoçusu Türkiyənin Antalya şəhərində keçiriləcək Qran-Pridə iştirak edəcək.

Azərbaycan Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Vüqar Şirinli (60 kiloqram) J2 kateqoriyasında, Zakir Mislimov (90 kiloqramda) və Xatirə İsmiyeva (+70 kiloqram) isə J1 kateqoriyasında mübarizə aparacaq.

Qeyd edək ki, yarış "Paris-2024" Yay Paralimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

### "Qarabağ"ın Çempionlar Liqasının I təsnifat mərhələsindəki ilk potensial rəqibi müəyyənləşib

Azərbaycan Premyer Liqasında çempionluğu rəsmiləşdirən "Qarabağ"ın 2024/2025 mövsümündə UEFA Çempionlar Liqasının I təsnifat mərhələsindəki ilk potensial rəqibi müəyyənləşib.

"Report"un məlumatına görə, Ağdam təmsilçisi İslandiya klubu "Vikinqur"la qarşılaşa bilər.

Ümumiyyətlə, yarışa I raunddan qoşulacaq 6 komanda artıq dəqiqləşib ki, onlardan yalnız Reykyavik komandası səpələnməmişlərdə yer alacaq. Digər 5 klub - "Qarabağ", HİK (Finlandiya), "Flora" (Estoniya), "Klaksvik" (Farer adaları) və "Şemrok Rovers" (İrlandiya) püşkatma zamanı səpələnmişlərdə, yəni güclülərin sırasında qərarlaşacaqlar. "Qarabağ" 33,000 əmsalla mərhələnin ən yüksək reytinqə malik komandasıdır.



TNS (Uels), RFŞ (Latviya), "Dinamo" (Batumi, Gürcüstan), "Dinamo" (Minsk, Belarus), "Panevejis" (Litva) və "Odrabası"nın (Qazaxıstan) səbəti qeyri-müəyyəndir.

Qurban Qurbanovun kollektivi mərhələni adlayacağı təqdirdə, II raundda da səpələnmişlərdə olacaq.

Qeyd edək ki, Çempionlar Liqasında I təsnifat mərhələsinin püşkü iyunun 18-də atılacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5566**
**Sifariş: 735**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova